www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 avqust 2018-ci il Çərşənbə axşamı № 172 (7061) Qiyməti 60 qəpik

Xəbər

## DTX zabitləri şantaj edənləri saxladı

yazısı səh.5-də

Gündəm

### Aktauda Xəzər anlaşması: dənizin üstü bölündü, qaldı altı..



Üçüncü onillikdir davam edən müzakirələrlə bağlı fərqli yanaşmalar; ekspert: "Azərbaycan Xəzərdəki qonşuları ilə bir hüquqi davranış kitabçası əldə etdi"

yazısı səh.9-da

### Prezident Qaradağda Logistika Mərkəzinin açılışını etdi

yazısı səh.4-də

### Qonşulardan gələn iqtisadi təhlükədən necə qorunmalı? - maliyyəçi-professorun təklifləri

yazısı səh.5-də

### Benzin bahalaşacaqmı - iqtisadi əsaslandırma və rəy

yazısı səh.4-də

### Qubad İbadoğlu Türkiyədəki böhranı niyə meşə yanğınına bənzətdi?

yazısı səh.7-də

### Ermənistan cəbhədəki itkilərini gizlədir

yazısı səh.10-da

### Bakıda 25 nəfərin diri-diri yandığı işin istintaqı bitdi

yazısı səh.5-də

### Türkiyə-ABŞ gərginliyi səngimir - yeni bəyanatlar

yazısı səh.12-də

### Paytaxtın məşhur restoranında və Mingəçevirdə kütləvi zəhərlənmə

yazısı səh.14-də

### Həftəsonunun ağır yol qəzası statistikası - 5 ölü

yazısı səh.13-də

### Qəlbimiz səninlə, "Qarabağ" - bu gün BATE sınağıdır

yazısı səh.15-də

# ÖLKƏNİN "1 NÖMRƏLİ" DUSTAĞI AZADLIQDA - 5 İL 6 AY SONRA...

İlqar Məmmədovun şərti azadlığa buraxılmasına Avropa Şurasından dərhal reaksiya gəldi; ailəsi bu xəbəri göz yaşları ilə qarşıladı; **Fəzail Ağamalı:** "Bu, dövlət başçısının növbəti humanist addımıdır"; YAP-çı deputatdan "ağıllı olsun" mesajı, müxalifət partiya sədrindən isə gözlənilməz mövqe...



yazısı səh.3-də

## ABŞ Paşinyanı "ölümə" göndərir - ilginc gözlənti

Konqresin 50 üzvünün Trampa çağırışının pərdəarxası; erməni baş nazir Putinlə açıq toqquşmaya sürüklənir - motiv; işğalçı ölkə regionda Türkiyəni əvəzləyəcək?

yazısı səh.8-də



*Emin Həsənli:*

### "Azərbaycan tərəfi 40 dəqiqəyə Ohanyan xəttini darmadağın etdi"

yazısı səh.6-da



### Səlim Müslümovun Ağsu aşırımındakı hökmranlığı qalır

yazısı səh.7-də



### Fədayə Laçın məhkəmədə bütün sirlərini açdı

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 172 (7061) 14 avqust 2018




## İsrail "Eurovision" müsabiqəsini keçirməyə pul tapmır

**Müddətin başa çatmasına cəmi bir gün qalmış İsrail 2019-cu ildə "Eurovision" yarışmasının keçirilməsi üçün pul tapmır. Virtualaz.org Rusiya mətbuatına istinadən xəbər verir ki, İsrailin "Kan" dövlət şirkəti baş nazir Binyamin Netanyahuya müraciət ünvanlayaraq, Avropa Yayım İttifaqına (EBU) 12 milyon avro köçürülməsini xahiş edib. Əks halda, ölkə müsabiqəni keçirmək hüququnu itirəcək.**

Girov vəsaiti EBU-nun hesabına ölkənin beynəlxalq müsabiqəni qəbul etməyə hazır olduğunu sübuta yetirmək məqsədilə ödənilməlidir. İstisna hal kimi İsrail üçün bu müddət avqustun 14-nə kimi uzadılmışdı.

Teleşirkət Qüdsdə keçirilməsi planlaşdırılan mahnı müsabiqəsinin boykotla üzləşəcəyi ehtimalı olduğundan, öz vəsaitlərini xərcləməyə ehtiyat edir. Bununla birlikdə, "Eurovision-2019"un büdcəsi 157 milyon şekel (təxminən 45 milyon dollar) təşkil edir.

## Taxıl sahələrini yandıranlara xəbərdarlıq: 6 min manatadək cərimə olunacaqlar

**Kənd Təsərrüfatı Nazirliyi biçindən sonra taxıl sahəsini yandıranlara növbəti dəfə xəbərdarlıq edib. İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə əsasən, əkin sahəsini yandıran fiziki şəxslər 400 manatdan 600 manata, vəzifəli şəxsləri 1500 manatdan 2000 manata, hüquqi şəxsləri isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə ediləcəklər.**

## Azərbaycanda qanunsuz yaşayan 71 miqrant saxlanılıb



**Dövlət Miqrasiya Xidməti (DMX) qanunsuz miqrasiyaya qarşı mübarizəni danvam etdirir. DMX-nin mətbuat xidmətindən "Report"a verilən məlumata görə, DMX tərəfindən üç gün ərzində qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı müxtəlif ölkələrin vətəndaşları olan 71 əcnəbi saxlanılıb.**

Onlardan 10 nəfərinin Azərbaycan Respublıkasının ərazisində gəlişinin bəyan edilmiş məqsədlərini pozduqları, 8-nin qeydiyyat ünvanı üzrə yaşamadıqları, digər 53 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyən edilib.

Saxlanılmış əcnəbilərdən 51-nin barəsində inzibati qərarlar qəbul edilib, digər əcnəbilərin Azərbaycan Respublıkası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.

## Gələn həftə Azərbaycanda iki gün iş olmayacaq

**Qurban bayramı ilə əlaqədar gələn həftə Azərbaycanda iki gün iş olmayacaq. Virtualaz.org xatırladır ki, Əmək Məcəlləsinin 105-ci (Bayram günləri) maddəsinin 2-ci hissəsinə və Nazirlər Kabinetinin "2018-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" qərarına əsasən avqustun 22-si və 23-ü ölkədə qeyri-iş günüdür.**

Bayram həftənin çərşənbə və cümə axşamı günlərinə təsadüf edir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Bakının dörd rayonunda tikinti qanunsuzluqları: cinayət işi qaldırıldı



**Baş prokurorluqla Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Bakının dörd rayonunda tikinti sahəsində yol verilmiş qanunsuzluqlara dair birgə rəsmi məlumatla çıxış edib. Virtualaz.org xəbər verir ki, məlumatda Binəqədi, Xətai, Nəsimi və Nizami rayonlarında şəhərsalma və tikinti normalarının çoxsaylı pozuntularının aşkarlandığı, cinayət işinin qaldırıldığı bildirilir.**

Belə ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən şəhərsalma nəzarəti qaydasında Bakı şəhərinin Xətai, Binəqədi, Nəsimi və Nizami rayonlarında keçirilmiş yoxlamalar zamanı aparılan araşdırmalar nəticəsində müəyyən edilib ki, bir çox hallarda tikintisi nəzərdə tutulan qeyri-yaşayış sahələrinin Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu tərəfindən şəhərsalma əsaslandırılmasının işlənilməsi, həmin şəhərsalma əsaslandırılmasının Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsi ilə razılaşdırılması və müvafiq dövlət orqanları tərəfindən rəylərin verilməsinə baxmayaraq, həmin tikintilərin aparılması üçün Bakı Şəhər İcra Hakimiyyətindən tikintiyə icazənin alınması təmin edilməyib. Rayon icra hakimiyyəti orqanları tərəfindən səlahiyyətləri olmadığı halda, bu sahələrdə tikintiyə icazə verilib, habelə müvafiq qaydada ərazi planlaşdırma sənədlərinin təsdiq edilməməsi, tikintisinə icazə verilən obyektlər barədə sənəd və məlumatların tikintilərin Dövlət reyestrinə təqdim edilməməsi kimi qanun pozuntuları aşkar olunub.

Qeyd olunan faktlar üzrə Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 314-2.1 (qanunla müəyyən olunmuş qaydaları pozmaqla torpaq sahələri ayırma, yaxud tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə) və 188.2-ci (torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma) maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla qanun pozuntularına yol vermiş vəzifəli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.



## İran elektrik enerjisini Rusiyaya Azərbaycan vasitəsilə ötürəcək

**İran elektrik enerjisinin Rusiya ərazisinə tranziti üçün Azərbaycanla danışıqlar aparır. Bunu İranın energetika naziri Rza Ardakanian deyib.**

Nazir bildirib ki, İranın şimal qonşuları vasitəsilə Avropanın elektrik şəbəkələrinə qoşulması mümkün ssenarilərdən biridir.

Onun sözlərinə görə, İran həmçinin Pakistan, Əfqanıstan, Türkmənistan, Azərbaycan, Türkiyə və İraqla elektrik enerjisi mübadiləsi etmək niyyətindədir.

Qeyd edək ki, bu ilin aprelində Azərbaycan, Rusiya və İranın energetika nazirləri 3 ölkənin enerji sistemlərinin birləşdirilməsi üzrə işçi qrupunun yaradılması məsələsini müzakirə etmişdi. (Trend)

## Bakıda 27 dərəcə isti olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyinin arabir güclənəcəyi gözlənilir.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 20-23, gündüz 25-27, Bakıda gecə 21-23, gündüz 25-27 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək.

Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 24-25 dərəcə isti təşkil edəcək. Şimal-qərb küləyinin arabir güclənməsi ilə əlaqədar çimərliklərdə əlverişsiz hava şəraiti müşahidə olunacaq.



## Köçəryan azadlığa çıxdı

**Ermənistan Apelyasiya Məhkəməsi keçmiş prezident Robert Köçəryanı azadlığa buraxıb. Musavat.com xəbər verir ki, vəkil Ruben Saakyanın sözlərinə görə, məhkəmə müəyyən edib ki, Robert Köçəryan toxunulmaz şəxsdir.**

Jurnalistlərlə söhbətində Robert Köçəryanın vəkillərindən biri Ruben Saakyan deyib ki, məhkəmə müdafiə tərəfinin vəsatətini təmin edib və keçmiş prezidentin toxunulmazlığını nəzərə alaraq, ilk instansiya məhkəməsinin qərarını ləğv edib. "Robert Köçəryan artıq məhkəmə binasından çıxıb", - vəkil qeyd edib.

Xatırladaq ki, Köçəryan iyulun 28-də məhkəmənin qərarı ilə həbs edilmişdi. O, 2008-ci ildə konstitusiya quruluşunun devrilməsində ittiham olunur.



## Azərbaycanda evlənənlərin sayı azalıb

**Azərbaycanda bu ilin ilk 5 ayı ərzində evlənənlərin sayı ötən ilin müvafiq dövründə evlənənlərin sayı ilə müqayisədə azalıb. 2018-ci ilin beş ayı ərzində qeydiyyat şöbələri tərəfindən 22489 nikah qeydə alınıb. Ötən ilin müvafiq dövründə isə nikahların sayı 23044 olub ki, bu da bu illə müqayisədə 555 nikah çoxdur. Ümumilikdə bu il əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 5,5 olub.**

Boşanmaların sayına gəldikdə, bu ilin ilk 5 ayı ərzində 6177 boşanma halları qeydə alınıb. Bu il qeydə alınan boşanmaların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə nisbətən azalıb. Ötən ilin ilk 5 ayı ərzində ölkədə 6207 boşanma qeydə alınmışdı. Bu il əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı 1,5 olub. («Trend»)

## İŞİD lideri dirilib "yaralandı"

**İŞİD qruplaşmasının rəhbəri Əbu Bəkr əl-Bağdadi İraq Hərbi Hava Qüvvələrinin Suriyada keçirdiyi əməliyyat nəticəsində ağır yaralanıb. TASS xəbər verir ki, bu barədə İraq kəşfiyyatından olan mənbə bildirib.**

Onun sözlərinə görə, əl-Bağdadi qruplaşmanın qərargahında olan zaman İraq aviasiyasının zərbəsinə məruz qalıb. Reydin iyun ayında keçirildiyi bildirilsə də, məkan göstərilməyib. Məlumatda qeyd olunur ki, İŞİD rəhbəri aldığı yaralar səbəbindən vəzifəsini icra etmək qabiliyyətini itirib. Silahlıların bir hissəsi onun yerinə Əbu Osman ət-Tunisinin namizədliyini irəli sürüb ki, bu da qruplaşmanın sıralarında parçalanmaya səbəb olub.

Xatırladaq ki, əl-Bağdadi son dəfə 2014-cü ildə İraqın Mosul şəhərində cümə xütbəsi zamanı kütlə qarşısında çıxış etmiş və Yaxın Şərqdə "xilafətin" yaradıldığını elan etmişdi. Ötən il sentyabr ayının sonlarında isə İŞİD silahlıları arasında onun səs yazısı yayılmışdı.

ABŞ əl-Bağdadinin ələ keçirilməsinə və ya öldürülməsinə yardım edəcək hər hansı informasiyaya görə 25 milyon dollar mükafat təyin edib.

**REAL Partiyasının sədri İlqar Məmmədov 5 il 6 aydan sonra avqustun 13-də azadlığa buraxılıb. Məhkəmə onun cəza müddətinin qalan hissəsinin 2 il sınaq müddəti ilə əvəzlənməsi və ölkədən çıxışına qadağa qoyulması ilə şərti cəza barədə qərar qəbul edib. Yada salaq ki, İ.Məmmədov 2013-cü il yanvarın 24-də İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunub. O, Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il müddətinə azadlıqdan məhrum edilib. Bu il iyunun 29-da Ali Məhkəmənin Plenumu kasasiya və apelyasiya instansiyalarının qərarlarını ləğv edib və işi yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarıb.**

# Ölkənin "1 nömrəli" dustağı azadlıqda-5 il 6 ay sonra...

## İlqar Məmmədovun şərti azadlığa buraxılmasına Avropa Şurasından dərhal reaksiya gəldi; ailəsi bu xəbəri göz yaşları ilə qarşıladı; **Fəzail Ağamalı:** "Bu, dövlət başçısının növbəti humanist addımıdır"; YAP-çı deputatdan "ağıllı olsun" mesajı, müxalifət partiya sədrindən isə gözlənilməz mövqe...











Bu qərara Avropa Şurasının baş katibi Torbyorn Yaqland dərhal reaksiya verib. REAL partiyasının sədri İlqar Məmmədovun azad olunması ilə bağlı qərarı alqışlayıb. Bu barədə Avropa Şurası baş katibinin bəyanatında bildirilib.

"Azərbaycanda Şəki Apelyasiya Məhkəməsinin beş ildən çox həbsdə olan İlqar Məmmədovun azadlığa buraxılması barədə qərar qəbul etməsini alqışlamaq lazımdır" deyə, T.Yaqlandın bəyanatında deyilir.

**İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova "Yeni Müsavat"a bildirib ki, xəbərə çox çətinliklə inanıb:** "İlk öncə şok oldum. Sonradan bu xəbərin sevincindən qızımla ağlamağa başladıq. Həmin an qızıma xəbər verdim. Qızım da donub qaldı və tez-tez soruşur ki, bu xəbər doğrudur. Hələ də deyir ki, bəlkə səhv xəbər veriblər. Qarmaqarışıq hisslərlə qarşıladıq. Belə bir xəbərin bizi gözləyəcəyinə inanmırdıq. Onu da deyim ki, bu məhkəmə Avropa Məhkəməsinə görə oldu. Bu məhkəmənin qərarı var idi ki, proseslər səhv keçirilib. Qərarın ləğv olunması tələbi var idi. Bildiyiniz kimi, Ali Məhkəmənin Plenumunda qərarlar ləğv olundu və iş yenidən Şəki Apelyasiya Məhkəməsinə qaytarıldı. Bu məhkəmə də belə bir qərar verməli idi və doğru da qərarı verdi. Amma tam azad etmədilər. İlqarın il yarım cəzası qalıb, amma iki il şərti cəza veriblər. Bu, çox müəmmalı qərardır. Amma istənilən halda əsası, odur, ki azadlıqdadır".

**REAL-ın İdarə Heyətinin üzvü Natiq Cəfərli isə söyləyib ki, sədrlərinin azadlığa çıxacağı ilə bağlı ümidləri olub:** "Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin də iki qərarının yerinə yetirilməsi istiqamətində Azərbaycan üçün şərtlər qoyulmuşdu. Təbii ki, İlqar Məmmədovun bu gün azadlığa çıxacağını gözləmirdik. Yaxın günlərdə olacağına ümidlər var idi".

Sosial şəbəkələrdə ölkənin əsas əksər ictimai şəxsləri, sıravi vətəndaşları qərarı müsbət qarşılayıb.

**Bu qərarla bağlı "Yeni Müsavat"a danışan deputat Fəzail Ağamalı bildirib ki, İlqar Məmmədovun azadlığa çıxması ilk növbədə dövlət başçısının növbəti humanist addımıdır:** "İlqar Məmmədovun həbsi, onun cəza çəkməsi ilə bağlı uzun müddətdir ki, ən müxtəlif müzakirələr aparılırdı. Eyni zamanda onunla bağlı ən müxtəlif xarakterli yazılar dərc edilib, beynəlxalq təşkilatlara fərqli dosyelər təqdim olunurdu. Bunun əsasında isə müəyyən qərarlar çıxarılır, Azərbaycana təzyiqlər edilirdi. İstər ölkəmizdə, istərsə də xaricdə olan anti-Azərbaycan qüvvələr bu amildən gen-bol istifadə etməyə çalışırdılar. İndi isə İlqar Məmmədov azadlıqdadır. Əlbəttə ki, bu humanist addımı müsbət qiymətləndirirəm. İlqar Məmmədov həbsxanada olduğu zaman kəsiyində heç şübhəsiz ki, öz fəaliyyətini götür-qoy etmiş, yanlış və doğrusunu özü üçün müəyyənləşdirib. Çox istərdim ki, İlqar Məmmədov Azərbaycanın qanunlarına, konstitusiyasına söykənərək, Azərbaycanın milli maraqlarını əsas tutaraq fəaliyyətini qursun və heç bir xarici qüvvə ilə bu və ya digər formada əməkdaşlığa getməsin. Azərbaycana naminə, Azərbaycan uğrunda müxalifət olaraq fəaliyyətini göstərib, töhfələrini versin".

**YAP-ın İdarə Heyətinin üzvü Eldar İbrahimov modern.az saytına açıqlamasında İlqar Məmmədovun azadlığa çıxmasını belə dəyərləndirib:** "Azərbaycanda hər bir şəxs etdiyi əməllərə görə qanun qarşısında bərabər məsuliyyət daşıyır. İlqar Məmmədov cinayət etmişdi və etdiyi cinayətə görə də həbs edilmişdi. Arzum budur ki, Allah ona ağıl versin və bir də gedib həbsxanaya düşməsin".

**Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a bildirib ki, İlqar Məmmədovun azadlığa buraxılmasını Qərbin təzyiqi ilə əlaqələndirmək olmaz:** "İlqar Məmmədovun azadlığa buraxılmasına kiminsə hökumətimizə diktəsi kimi yanaşmaq düzgün deyil. Azərbaycan hökuməti hazırda Avropa İttifaqı ilə müqavilə imzalamaq ərəfəsindədir. Artıq müqavilənin ilkin variantı paraflandı. Azərbaycan Qərblə, Avropa ilə əlaqələr qurmaqda maraqlıdır. Qərbin təbii qazla bağlı əcaib qaz oyunları var. Belə bir vaxtda isə bizim TAP layihəmiz çox legitimdir. Hətta o dərəcədə legitimdir ki, İrana qarşı sanksiyalarda TAP-ın adı yoxdur. Qərblə Azərbaycanın münasibətləri çox həssas məcradadır. Yaxından da Angela Merkel regionun üç dövlətinə səfər edəcək. Cənubi Qafqazda Avropa İttifaqının siyasətini qurmaq istəyirlər. Hesab edirəm ki, bizim hökumətdəkilər bilirlər ki, Avropa İttifaqının bu vaxta qədər Cənubi Qafqaz üzrə siyasətinin iflasda olmasının səbəbi, onların xristian siyasətinə üstünlük vermələri idi. Ehtimal ki, artıq dərk ediblər ki, Cənubi Qafqazın lider dövləti Azərbaycandır. Azərbaycan hökuməti də bu dəyişikliyi görür. Ona görə də Avropadan gələn müsbət çağırışları cavabsız qoymurlar. İlqar Məmmədov o boyda şəxsiyyət deyil ki, Azərbaycan hökuməti bir ona görə bütün Avropa dövləti ilə düşmən olsun. Ona görə də Azərbaycan hökumətinin siyasətini dəyişməsini doğru hesab edirəm. Yeni sabah Azərbaycan təmsilçiləri ilə Avropanın təmsilçiləri görüşən zaman müzakirə üçün ayrılan vaxt çərçivəsində əsas məsələlər müzakirə edilsin. Bu aspektdən İlqar Məmmədovun azadlığa buraxılmasını çox müsbət qiymətləndirirəm. Hesab edirəm ki, onun bütün intellekti, siyasi bacarığı xalqımızın inkişafı istiqamətində olacaq".

**İ.Məmmədovun azadlığa buraxılması ilə müxalifətdə canlanma yaranacağı iddiaları barədə isə Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu danışıb:** "Bunu dəfələrlə demişəm. Onu çox yaxşı tanıyıram - AMİP-də olandan bəri. Onun elə bir qeyri-adi liderlik qabiliyyəti, bacarığı olduğuna inanmıram. Düşünmürəm ki, İlqar Məmmədov Azərbaycan siyasi müxalifətinə hansısa yenilik, dəyişiklik gətirə bilər. Əgər qarşısına belə bir məqsəd qoyubsa, arzusuna çatsın. Onun tərəfdarlarına da bu istiqamətdə müvəffəqiyyətlər arzulayıram. Digər tərəfdən, xalqı əsassız ümidləndirmək də günahdır. Ölkədə elə liderlər olub ki, siyasətə gələndə böyük ümidlər vəd edib, onun ətrafında ajiotaj yaradıblar. Amma faktiki olaraq fəaliyyətində qısa müddətdən sonra yenilik olmadığı aşkara çıxıb".

İlqar Məmmədovun cəzasının yüngülləşməsinə, real həbsin şərti hal ilə əvəzlənməsinə baxmayaraq, müdafiə tərəfi Şəki Apelyasiya Məhkəməsinin qərarından kasasiya şikayəti vermək niyyətindədir. Bu barədə AzadlıqRadiosuna vəkil Fuad Ağayev bildirib. "Müsbət cəhət odur ki, məhkəmənin qərarından sonra İlqar Məmmədov azadlığa çıxıb. Məhkəmənin qərarının qalan hissəsi mənfidir. Çünki İlqar Məmmədov yenidən təqsirli bilinir" deyə, vəkil bildirib.

Axşam saatlarında İ.Məmmədov Şəkidən Bakıdakı mənzilinə gəlib çatıb. Musavat.com-un müxbirinin verdiyi xəbərə görə, siyasətçi media nümayəndələrinə yaxın günlərdə mətbuat konfransı təşkil edəcəyini bildirib. Eyni zamanda tibbi müayinədən keçəcəyini söyləyib.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# "Leçfak"ın yeni qiyməti

Xalid KAZIMLI

**Sovet dövrünün axır illərini yaşayanlar yaxşı xatırlayar: ən böyük problemlərdən biri də tələbə qəbulu ilə bağlı idi. Bu sahədə korrupsiya ərşdə-gürşdəydi. Qəbul açıq-aşkar pulluydu. Universitetlərə (dövrün terminləri ilə desək, institutlara) qəbul olunanların artıq əksəriyyəti tələbə statusunu rüşvətlə qazanırdı. Hər kursda 5-10 faiz kasıb övladı pul-parasız qəbul ola, ya olmayaydı.**

Universitetlərdə elə fakültələr və ixtisaslar vardı ki, yaxın düşmək mümkün deyildi. Bunlardan biri BDU-nun hüquq fakültəsiydi. Ela arasında ona qısaca "yurfak" deyirdilər. O biri isə camaat arasında "Medinistut" və qısaca "AMİ" (Azərbaycan Tibb Universitetinin adının riscası - Azerbaydjanskiy Medisiniskiy İnstitut) adlandırılan təhsil ocağının "leçfak"ı (müalicə-profilaktika fakültəsi) idi.

O zamanlar prestijinə görə üçüncü, dördüncü yerdə olan başqa institut və fakültələr də vardı: "jurfak", "Narxoz", "Avtonəqliyyat" (buranı bitirənlər "QAİ"-yə, indiki DYP-yə asan düzələ bilirdilər), tarix (bu fakültəni bitirənlər də partiya işinə daha rahat keçirdilər) və s.

Ancaq "leçfak" və "yurfak" prestijlərinə görə birinci-ikinci yerləri bölüşdürürdülər və qəbul qiymətləri çox bahaydı, 25 min rubldan başlayırdı. Təbii ki, bu fakültələrə daha baha, yaxud da bir az ondan ucuz qiymətə girənlər də olurdu.

Bəs hamı bu fakültələrə rüşvətlə girirdimi? Xeyr. Kasıb adamların vunderkind övladları da ən azı iki "əla, iki "yaxşı" qiymət alaraq bu fakültələrə daxil ola bilirdilər. Amma onların sayı az idi. Hazırda 670-700 bal toplayan abituriyentlərin sayı qədər o zamanlar da "oxuyan uşaqlar" tapılırdı.

Ancaq yuxarıda dediyimiz kimi, əksəriyyət o vaxtlar adıçəkilən universitetlərə böyük rüşvətlərlə, himayədarlıqla daxil olur, böyük rüşvətlər və ya "dayı tapşırığı" hesabına oxuyub bitirirdilər.

Hazırda millətin canına daraşan bisavad həkimlər, tamahkar hakimlərin, prokurorların bir xeylisi o dövrün məhsullarıdır.

Yaxşı ki, 1992-ci ildə qəbul qaydaları radikal şəkildə dəyişdirildi, "test inqilabı" bu sahədə elə bir dönüş yaratdı ki, valideynlər və abituriyentlər böyük ölçüdə hələ də o inqilabın bəhrəsini dadır.

Fəqət bir neçə ildir prestijli universitet və fakültələrin başında şəmşir-qılınc oynadılır. Ölkəyə çox sayda yüksək ixtisaslı tibb mütəxəssisləri lazım olduğu halda Tibb Universitetinin qəbul planında ixtisar edilir, universitetdə təhsil pullu (həm də ifrat bahalı) müstəviyə keçirilir.

Artıq yalnız varidatı orta statistik göstəricilərdən yuxarı olan valideynlərin, bir də varlıların övladları həkim ola biləcəklər. Söz yox, sovet dövründə olduğu kimi, yenə də kasıb ailələrin vunderkind, erudisiyalı övladları da həkim olmaq arzularını gerçəkləşdirə biləcəklər. Amma elələrini sayı nə qədər olacaq? 3-5, lap olsun 10 nəfər.

Yerdə qalanlar isə onlardan 100-150 bal az toplayan, amma ildə 4000-4500 manat təhsil haqqı ödəmək imkanı olan "varlı" tələbələr olacaq. Elə böyük imkanı olmayan, amma övladının həkim olmasını istəyən ortabab adamlar maddi sıxıntı çəkəcək, borca düşəcəklər. Bəlkə də onların övladları məcburiyyət üzündən təhsillərini yarımçıq qoymalı olacaqlar.

Nəticədə zamanla klinikalar, poliklinikalar, hospitallar, dispanserlər pulla oxumuş, təhsildə o qədər də fərqlənməmiş, birtəhər diplom almış tibb mütəxəssisləri ilə dolacaq.

Ondan sonra ölkə səhiyyəsinin yüksək səviyyəsindən necə danışmaq olar? Tərs kimi, son illərdə xarici ölkələrdə ixtisasını artırmağa yollanan tibb mütəxəssislərinin də sayı azalıb.

Uzun sözün kəsəsi, dövlət sözügedən istiqamətdə hər şeyi özbaşına buraxmamalıdır, monopoliya yaratmaq istəyənlərə, çoxlu pul qazanmağı düşünənlərə yaşıl işıq yandırmamalıdır.

Azərbaycan xalqı onsuz da sağlamlığı ilə öyünə biləcək durumda deyil. Adamlar çökməyincə həkimə getmirlər. Onlar bir də naşı, bisavad həkimlərin əlinə düşüb məhv olacaqlar, ya da son 20 ildə dəb halını almış yolu tutacaqlar - borca girərək can sağlığını ölkə xaricində axtaracaqlar.

# Prezident Qaradağda Logistika Mərkəzinin açılışını etdi

## Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir



**Prezident İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa olunan Abşeron Logistika Mərkəzinin açılışında iştirak edib. Prezident İlham Əliyev Abşeron Logistika Mərkəzinin fəaliyyəti ilə tanış olub.**

Abşeron Logistika Mərkəzinin direktoru Ziya Ağayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib. Bildirilib ki, mərkəzin inşasına 2017-ci ilin aprelində başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən Abşeron Logistika Mərkəzinin sutkalıq yükaşırma gücü 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Bu mərkəz vasitəsilə Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı planlaşdırılır. Abşeron Logistika Mərkəzi bütün xidmətləri təklif etməklə vaxta qənaəti və xərclərin azalmasını təmin edir.

Müəssisə ilk mərhələdə 28 hektar ərazidə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqəsini təmin edərək logistika xidməti göstərməyə başlayacaq. İkinci mərhələdə isə 35 hektar ərazi üçün layihə hazırlanıb. Bu mərhələnin yekunlaşmasından sonra Logistika Mərkəz həm Azərbaycanın, həm də Qafqazın coğrafı logistik inkişafına, həmçinin ölkəmizin iqtisadi tərəqqisinə böyük töhfə verəcək.

Mərkəz vahid gömrük məntəqəsi kimi qəbul olunub. İdxal, ixrac və tranzit gömrük əməliyyatları ərazidə yerləşən gömrük orqanları tərəfindən həyata keçirilir.

Logistik xidmət tərəfdaşlarının əməkdaşlığı məhsuldarlığı və səmərəliliyi daha da artıracaq. Mərkəzin yaradılmasında əsas məqsəd ən müasir üsullarla müştərilərin istəklərini təmin etməkdir. Bunun üçün bütün xidmətlər "vahid pəncərə" sistemi ilə bir nöqtədən təmin olunur. Müəssisədə ümumilikdə 350 nəfər işlə təmin edilib.

Vurğulanıb ki, Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və ən müasir texnikalar xidmət göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib. Burada üçmərtəbəli gömrük, inzibati və müştəri xidmətləri binası, həmçinin giriş-çıxışa nəzarət, texniki, ictimai obyekt binaları inşa edilib.



Mərkəzdə 6-sı qatar qəbulu, 2-si konteyner, 2-si açıq yük və 2-si anbar sahələrinə boşaltma və yükləmə xətləri olmaqla, ümumilikdə 12 kilometr uzunluğunda dəmir yolu xətti var. Müəssisədə illik yükaşırma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması da icra olunacaq.

# Benzin bahalaşacaqmı-iqtisadi əsaslandırma və rəy

## İlham Şaban: "Hökumət istəsə..."

**İctimaiyyətdə avtomobil yanacağının qiymətlərinə olan maraq daim gündəmdədir. Dünya bazarında yanacağın qiymətinin sürətlə dəyişməsi meylliliyinin ölkəmizə nə dərəcədə təsir edəcəyi əhali arasında böyük marağa səbəb olur.**




Bu günlərdə ölkə mətbuatında "Premium Euro-95" və "Super Euro-98" markalı avtomobil benzinlərinin qiymətinin artmasını əsaslandıran materiallar dərc olunub.

Həmin materialda qeyd olunur ki, Azərbaycana idxal olunan "Premium Euro-95" markalı avtomobil benzininin hər litri hazırda orta hesabla, təxminən 1.35-1.4 AZN-ə başa gəlir.

Hazırda Azərbaycanda fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrində "Premium Euro-95" markalı avtomobil benzininin pərakəndə satış qiyməti hər litr üçün 1.25 AZN (0.74 ABŞ dolları), "Super Euro-98" markalı avtomobil benzinin pərakəndə satış qiyməti hər litr üçün 1.5 AZN (0.88 ABŞ dolları) təşkil edir: "Ölkəmizdə adıçəkilən benzin markalarının qiymətinin formalaşmasına dünya bazarında bu neft məhsullarına mövcud olan qiymətlər birbaşa təsir göstərir. Belə ki, göstərilən benzinlər hazırda Azərbaycanda istehsal edilmir və digər ölkələrdən idxal olunur. Bu səbəbdən, Nazirlər Kabinetinin 31 mart 2014-cü il tarixli qərarına əsasən, ölkədə istehsal edilməyən bu benzin növlərinə qiymətlər dövlət tərəfindən tənzimlənən mallar siyahısına aid edilməyib və xaricdən idxal edilən bu avtomobil benzinlərinin qiyməti sərbəst şəkildə müəyyənləşdirilir.

Müqayisə üçün bildirək ki, qonşu ölkələrdən Gürcüstanda 95 oktanlı avtomobil benzininin satış qiyməti 1.03 ABŞ dolları, yəni 1.75 AZN, 98 oktanlı benzinin satış qiyməti 1.07 ABŞ dolları, yəni 1.82 AZN, Türkiyədə isə müvafiq olaraq, 1.14 ABŞ dolları, yəni 1.94 AZN və 1.18 ABŞ dolları, 2.0 AZN təşkil edir. Ukraynada bu növdə avtomobil benzinlərinin satış qiyməti müvafiq olaraq, 1.18 ABŞ dolları, yəni 2.0 AZN və 1.22 ABŞ dolları, yəni 2.07 AZN civarındadır. Vacib məqam bundan ibarətdir ki, qonşu Gürcüstanda da bizdə olduğu kimi, adıçəkilən neft məhsulları istehsal edilmir və tələbat dünya bazarından idxal hesabına ödənilir".

Onu da qeyd edək ki, Aİ-95 və Aİ-98 benzinin qiyməti sonuncu dəfə 2017-ci ilin noyabrında qaldırılıb. Hər iki markadan olan benzinin 1 litrinin pərakəndə satış qiyməti 0,20 manat artaraq müvafiq olaraq 1,25 və 1,50 manata çatıb.

İdxalçılar qiymət artımını mənbə ölkələrdə (əsasən Rumıniya) bahalaşma ilə əlaqələndiriblər. Maraqlıdır ki, Aİ-95 və Aİ-98 markalı benzin əsasən varlılar tərəfindən istifadə olunur - bahalı avtomobillər üçün. Bu baxımdan, bu marka benzinin bahalaşması bilavasitə imkanlı təbəqəyə yönəlik addım olacaq.

Aİ-92 isə kütləvi istifadə olunan markadır. Onun bahalaşması, bir qayda olaraq, ardınca digər sahələrdə də qiymət artımlarını gətirir. Bu baxımdan, Aİ-92 həm də əhalinin sosial vəziyyətinə birbaşa təsiri olan məhsullardandır.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban hesab edir ki, bazar iqtisadiyyatı şəraitində hər hansı məhsulun dəyəri artan zaman ondan istehsal olunan digər məhsulların da bahalaşması qaçılmaz prosesdir:** "Aİ-95 və 98-in qiyməti sonuncu dəfə artanda - ötən ilin noyabrında neftin dünya bazarında qiyməti 60 dollar civarında idi. 2018-ci ilin yanvarından isə qiymət 70 dolları keçib. Aprel ayından - İrana qarşı sanksiyalara dair məlumatlar yayıldıqdan sonra isə qiymət 80 dollara yaxınlaşdı. Dünya ölkələrinin hamısında, o cümlədən Rusiyada neftdən istehsal olunan məhsulların, ən əsası da benzinin qiyməti bahalaşdı. Bu, qaçılmazdır, çünki neft emalı zavodları qiyməti xammalı aldıqları məbləğə uyğunlaşdırırlar. Hər 2-3 həftədən bir qiymətlər dəyişir. Digər ölkələrdə bu qiymət artımı neftin qiymətinə uyğun olaraq tədricən gedir. Azərbaycanda isə neçə aydır neftin qiyməti artsa da, Aİ-95 və 98-in qiyməti dəyişmir".

**Ekspertin sözlərinə görə, əksər ölkələrdə benzinin maya dəyərinin tərkibi dəqiqliklə ictimaiyyətə açıqlanır:** "Hətta Rusiyada da belə açıqlama verilir. Yəni bilmək olur ki, satılan benzinin qiymətində vergilərin payı nə qədərdir, nəqliyyat xərclərinin, xammalın payı nə qədərdir. Azərbaycanda isə belə məlumatlar ictimaiyyətə açıqlanmır. Heç bilmək olmur ki, SOCAR-ın neft emalı zavodu neftin tonunu, litrini neçəyə alır, benzinin maya dəyərində onun payı nə qədərdir. Bir ildə hər operator şirkət nə qədər benzin satdı, nə qədər qazanc əldə etdi".

**Aİ-92 markalı benzinin bahalaşmasının mümkünlüyünə gəlincə, İ.Şaban konkret fikir bildirməyin mümkün olmadığını deyir:** "Bizdə bu sahədə dövlət tənzimləməsidir, bazar iqtisadiyyatı mövcud deyil. Buna görə də heç nəyi istisna etmək, birmənalı fikir yürütmək mümkün deyil. Hökumət istəsə qaldıracaq, istəməsə yox..."

❑ DÜNYA,
"Yeni Müsavat"

Yeni Müsavat
N 172 (7061) 14 avqust 2018

# DTX zabitləri şantaj edənləri saxladı

**Dövlət Təhlükəsizliyi Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi Azərbaycanda ordu zabitlərinin və gizirlərinin intim görüntülərini gizli çəkərək onları şantaj edən reket baş redaktorun və köməkçilərinin həbsi barədə məlumat yayıb. Məlumatda deyilir:**

""El həkimi" qəzeti və onun internet saytı qismində fəaliyyət göstərən "reket nəşr"in təsisçisi və baş redaktoru Ağayev Zöhrab Mahmud oğlu, tabeçiliyində olan Cümşüdova Günel Cəlil qızı və digərlərinin ölkə ərazisində müxtəlif hərbi hissələrin zabit və gizirlərini qanunsuz əməllərə təhrik edərək şantaj etmələri, bu barədə videoçəkilişləri mobil telefondan internetlə bir-birilərinə ötürmələri müəyyən edilmiş, Dövlət Təhlükəsizliyi Xidmətində araşdırma başlanmışdır.

Keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Zöhrab Ağayev belə hədə-qorxu yolu ilə tələb olunan pulu aldıqdan sonra idarə etdiyi "90-PF-742" dövlət qeydiyyat nişanlı avtomobilində cinayət başında saxlanılmış, əvvəlcədən üzəri xüsusi qaydada işarələnmiş pullar, əllərində isə həmin pulların üzərinə çəkilmiş xüsusi tozun izləri aşkar edilərək


Zöhrab Ağayev


Günel Cümşüdova

sənədləşdirilmişdir.

Faktla bağlı başlanılmış cinayət işi üzrə davam edən araşdırmalarla həmin şəxslər məsuliyyətə cəlb olunmuşlar. Onlar tərəfindən gizli qaydada informasiya alınması üçün texniki vasitələrdən istifadə etməklə insanların güdülməsi, gizli videoçəkilişlərin aparılması, qanunla əməliyyat tədbiri hesab edilən sair əməllərin qanunsuz həyata keçirilməsi, insanların intim münasibətə cəlb edilməsi və sair yollarla toplanmış materiallar əsasında ayrı-ayrı şəxslərin şantaj edilməsi, müxtəlif məbləğlərdə pul tələb edilib alınması, bu üsulla müxtəlif təşkilatlardan dövri haqq toplanılması, hərbi qulluqçuların hər birindən əlavə digər hərbçilərin təsir altına salınmasına şərait yaratmalarının tələb edilməsinə dair çoxsaylı sübutlar, saxta media vəsiqələri və sair dəlillər aşkar edilərək götürülmüşdür.

Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər cinayət əməlləri barədə ətraflı ifadələr vermişlər.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilməklə Zöhrab Ağayev, Günel Cümşüdova və digərlərinin oxşar qanunsuz əməllərindən zərərçəkmiş şəxslərin müəyyən edilməsi istiqamətində araşdırmalar aparılır.

# Bakıda 25 nəfərin diri-diri yandığı işin istintaqı bitdi

## Narkoloji Mərkəzin şöbə müdirinin səhhətində problemlər olduğu üçün onun cinayət işi ayrıca icraata verilib

**Xəstələrin ölümü ilə nəticələnən yanğın hadisəsi ilə bağlı başlayan cinayət işi üzrə ibtidai istintaq başa çatıb. Həbs edilən şəxslər hakim qarşısına çıxarılır.**

Musavat.com xəbər verir ki, Bakının Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnən yanğınla bağlı mərkəzin direktoru Telman Məmmədhəsənov və digərlərinin cinayət işi üzrə ibtidai istintaq başa çatıb.

Təqsirləndirilən şəxslərin cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd edək ki, 2018-ci il martın 2-də Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Respublika Narkoloji Mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnən yanğın baş verib.

Narkoloji Mərkəzdə "alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozu ilə müalicə alan Bakı şəhər sakini Məhəmməd Məmmədov 2018-ci il mart ayının 3-də həmin cinayətdə şübhəli şəxs qismində tutulub. İlkin dindirmə zamanı cinayəti törətdiyini etiraf edən M.Məmmədov ailə üzvlərinin ona qərəzli münasibətinə etiraz əlaməti olaraq və Narkoloji Mərkəzdə müalicə almaq istəmədiyinə görə intihar etmək qərarına gəldiyini bildirib. Bu məqsədlə mart ayının 2-si saat 06 radələrində qaldığı palatada yorğana bürünərək onu alışqanla yandırdığını, alov güclələndikdə özünü öldürmək niyyətindən daşınıb yanan yorğanı çarpayısının üstünə atdığını, alovun digər palatalara keçməsindən qorxduğu üçün şöbənin qapısı açılan kimi mərkəzi tərk etdiyini göstərib.

M.Məmmədov barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib, eləcə də kompleks məhkəmə psixiatrik, psixoloji və narkoloji ekspertizalar təyin olunub.

Daha sonra Respublika Narkoloji Mərkəzin direktoru Telman Məmmədhəsənov, şöbə müdiri Azad Ələkbərov və mühəndis Mahir Abdullayev saxlanılıb və barələrində məhkəmə qərarı ilə üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Hər 3 şəxs barəsində CM-in 225.2 (yanğın təhlükəsizliyi qaydalarını pozma zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə - ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Şöbə müdiri A.Ələkbərovun səhhətində problemlər olduğu üçün onun cinayət işi ayrıca icraata ayrılıb. O, ürəyindən əməliyyat olunub.

Qeyd edək ki, bu iş üzrə ölənlərlə yanaşı, 29 yaralı da var və onlar zərərçəkmiş kimi tanınıb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# Manaf Ağayev intihar etmək istəyən yerlisini ölümdən qurtardı

## "Yalvardım ki, söz verirəm, sənin evini alıb özünə qaytaracam"



**Bir qədər öncə Qaçqın və Məcburi Köçkünlərlə İşi üzrə Dövlət Komitəsinin binasında intihara cəhd edən, gözdən əlil idmançını müğənni Manaf Ağayev xilas edib.**

Müğənni hadisənin təfərrüatları barədə musavat.com-a danışıb: "Bir məkanda əyləşmişdim, birdən mənə zəng vurub bildirdilər ki, "Füzulidən qeyrətli bir oğlan, hansı ki, çempiondur, "Qaçqınkom"un binasına çıxıb özünü atmaq istəyir, polislər və məmurlar onu fikrindən döndərə bilmirlər". Məndən xahiş edib dedilər ki, sən də füzulililərin bir ağsaqqalı kimi onu bəlkə fikrindən daşındıra bilərsən. Mən də hadisə yerinə getdim, xahiş etdim ki, məni onun yanına buraxın. Həmin vaxt o, qollarını doğrayıb, əlində də şüşələr var idi, qarnına soxurdu. Dedim ki, "məni qəbul edə bilərsən?" Yalvardım ki, "sənə söz verirəm, sənin evini alıb, özünə qaytaracam". Mənə bildirmişdilər ki, onun 3 övladı var, ona görə də xeyli yalvarıb-yapışdım. O da fikrindən döndü, məni qucaqladı. Camaat bu halı alqışladı. Oradaca aidiyyəti qurumlardan xahiş etdim ki, imkan çərçivəsində onun məsələsini həll etsinlər. Sağ olsunlar, xahişimi yerinə yetirdilər".

**Müğənni bildirdi ki, intihara cəhd edən əlil idmançıya verdiyi sözə əməl edib:** "Sənədlərini yenidəncə alıb, onun özünə qaytardım. Bu günə qədər bu cür olaylarla tez-tez rastlaşıram. Hərdən füzulililərdən kimsə özünü öldürmək və ya atmaq istəyəndə onu fikrindən daşındırmağa məni aparırlar. Füzuli camaatı da sağ olsun ki, mənim xahişimi yerə salmır".

Qeyd edək ki, dünən məcburi köçkün, gözdən əlil idmançı olan Natiq Hüseynov komitənin binasından özünü atmağa cəhd edib. O, mənzil problemi ilə əlaqədar sədrin qəbuluna gəldiyini, lakin məsələ həll olunmadığına görə canına qəsd etmək istədiyini bildirib, şüşələri qıraraq qollarını kəsib.

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**



# Qonşulardan gələn iqtisadi təhlükədən necə qorunmalı? - maliyyəçi-professorun təklifləri

## Saleh Məmmədov: "Hökumət ən qısa zamanda qeyri-neft iqtisadiyyatını qorumaq üçün tədbirlərə başlamalıdır"

**Yaxın qonşularımız olan Türkiyə, İran və Rusiyada baş verən iqtisadi böhran Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşməyəcək. Bu ölkələrdən ikisi - Rusiya və Türkiyə qeyri-neft ixracımızda müvafiq olaraq birinci və ikinci yeri tuturlar. Onlarda yerli valyutanın sürətlə dəyərdən düşməsi ixracatçılarımız üçün ciddi çətinliklər yarada bilər. Bu çətinlikləri önləmək, qeyri-neft iqtisadiyyatımızı mümkün mənfi təsirlərdən qorumaq üçün hökumətin bir sıra addımlar atması gərəkir.**

**Maliyyəçi-alim, sabiq maliyyə naziri Saleh Məmmədovun** fikrincə, hökumət ən qısa zamanda qeyri-neft iqtisadiyyatını qorumaq üçün tədbirlərə başlamalıdır: "Əsas ticarət tərəfdaşlarımız olan Türkiyə, İran, Rusiya, Çin, Avropa, Qazaxıstan və sair ölkələrin hamısında milli valyutalar ciddi surətdə dəyərini itirmişlər. Nəticədə Azərbaycan idxalının qiyməti bir o qədər ucuzlaşmış, ixrac məhsullarının qiyməti isə bahalaşmışdır. Deməli, dünya bazarında Azərbaycanın qeyri-neft məhsulları üzrə rəqabət qabiliyyəti xeyli zəifləyib. Belə davam edərsə, bu məhsulların istehsalçıları ya istehsalı məhdudlaşdırmaq, yaxud da tamamilə dayandırmaq məcburiyyətində qala bilər. Bu isə ölkədə işsizliyin artması, istehsalın və büdcə gəlirlərinin azalması, iqtisadi artımın zəifləməsi və sair kimi neqativ hallara gətirib çıxarar".

**Sabiq nazirin fikrincə, ölkənin bazarını qorumaq, qeyri-neft istehsalının, məhsul ixracının düşməsinin qarşısının alınması məqsədilə təcili tədbirlər görülməli, kompleks proqram hazırlanmalıdır:** "Birinci növbədə ən ağır zərbəni zərərsizləşdirmək, yəni manatın dəyərinin tədriclə azaldılması vacibdir. Milli valyuta yalnız pul vahidi deyil, həm də ən mühüm makroiqtisadi tənzimləmə vasitəsidir. Son bir neçə ayda İran valyutası 200-300 faiz, Türkiyə lirəsi 150-200 faiz, Rusiya rublu - 20 faiz dəyər itirib. Bunlardan idxal olunan malların dəyəri də təqribən bu qədər ucuzlaşıb. Bunun qarşısında hansı Azərbaycan istehsalçısı rəqabətə tab gətirə bilər? İkinci qrup tədbirlərə daxili qeyri-neft istehsalçılarına xüsusi güzəştli vergi sistemi qurmaq, əksəriyyətini bir çox vergilərdən azad etmək və ya çox cüzi səviyyəyə endirmək, güzəştli vergi sistemi hazırlamaq daxil olmalıdır. Üçüncüsü, qeyri-neft ixracatına xüsusi təşviq rejimi qurmaq, ixracı stimullaşdırıcı və sadələşdirici rejim yaratmaq lazımdır. İxracın nəqliyyat məsrəflərinin ən azı yarısını, sertifikatlaşma, rəsmiləşdirmə məsrəflərinin hamısını dövlət öz üzərinə götürməli, idxal-gömrük vergiləri (elmi-texnoloji məhsullar istisna olmaqla) dünya regionları üzrə artırılmalı və bunun hesabına ixrac bonusları müəyyən olunmalıdır. Dördüncüsü, qeyri-neft məhsullarının maya dəyərini aşağı salmaq üçün digər ciddi addımlar atmaq lazımdı: istehsal kreditlərinin maksimum həddi 3 faiz müəyyən edilməklə, kredit resursları dövlət vəsaiti hesabına təmin edilməli; dövlət inhisarında olan yanacaq, elektrik, suyun qiyməti aşağı salınmalı; istehsal üçün digər dövlət xidmətləri ucuzlaşdırılmalıdır. Beşincisi, idxal-ixrac rejimi Avropa İttifaqı standartlarına uyğun yenilənməli, sadələşməli, rüşvət aradan qaldırılmalı, tələb olunan sənədlər minimuma endirilməli, qeydiyyat müddəti maksimum qısaldılmalıdır. Sadalanan tədbirlər kompleks proqramın hissələridir, proqram isə bütün detalları ilə daha geniş tədbirlər sistemini əhatə edir. Bu tədbirlərin tətbiqini ləngitmək olmaz, dərhal başlamaq lazımdır, hər itirilən gün ölkəyə milyonlarla zərərə başa gəlir".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 172 (7061) 14 avqust 2018

# "Azərbaycan tərəfi 40 dəqiqəyə Ohanyan xəttini darmadağın etdi"

## Emin Həsənli: "Azərbaycanın ikinci dərsi daha ağır olacaq"

**Son aylarda Ermənistanda baş verən inqilabi proseslərdən sonra Azərbaycan tərəfinin bundan istifadə etməyinin vacibliyi barədə çağırışlar durmadan artır. Bu və ya digər mövzularla bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli ilə söhbət etdik.**

***- Emin bəy, düşmən ölkədə inqilab baş verdi və bundan sonra Azərbaycan tərəfi üçün bir şans yarandığı barədə fikirlər durmadan artır. Eyni zamanda nə üçün bu şansı dəyərləndirmədiyimiz suallar doğurur...***

- Ermənistan çox ağır durumdadır. Bu təcavüzkar ölkəni də bütün mənalarda ağır duruma Azərbaycan salıb. Bunun da səbəbləri var. Ermənistan torpaqlarımızı işğal edib. Köçəryan, Sərkisyan, Ohanyanın əlləri Xocalıda azərbaycanlıların qanına batıb. Ermənistanda belə bir qaniçən, quldur dəstə hakimiyyətə gəldi. Qarabağ mövzusunun üzərindən özlərini qəhrəman kimi göstərərək hakimiyyəti illərlə işğal etdilər. Azərbaycan dövlətinin apardığı uğurlu siyasətlə Ermənistan bütün layihələrdən kənarda qaldı.

***- Ermənistanda yenicə iqtidar olan Nikol Paşinyan hakimiyyətinin əvvəlkilərdən müsbət tərəfləri varmı?***

- Xeyr, o da əvvəlki hakimiyyətlərin davamıdır. Amma bütün təzyiqlərə baxmayaraq, Azərbaycan təcavüzkar ölkəni nokauta salaraq, bütün layihələrdən kənarda qoymağı bacardı. Bu səbəbdən də Ermənistanda yaranan iqtisadi böhran davam edir. Əhali oranı tərk edir. Pafosla hakimiyyətə gələnlər heç bir müsbət dəyişiklik etmədilər. Nəticədə Ermənistanın nəyi varsa, Rusiyaya satmağa məcbur oldu. Kreml düşmən ölkəni idarə etməyə davam edir. Hazırda Ermənistanda problemlər durmadan artır. Dönüş nöqtəsi isə 2016-cı ilin aprel müharibəsi oldu. Onların bir şüarı var idi ki, Qarabağı almışıq, böyük Ermənistan yaradacağıq. Əslində də bununla sakitləşdirməyə çalışırdılar ki, hər bir çətinliyə dözün, biz ərazilərimizi böyüdəcəyik. Amma aprel döyüşlərində Azərbaycan tərəfi 40 dəqiqəyə Ohanyan xəttini darmadağın etdi. Erməni tərəfi 500-dən artıq canlı qüvvə itkisi verdi. İki gün içərisində bütün Ermənistan şok yaşadı. Düşmən ölkənin əhalisi gördü ki, əslində onları müdafiə edəcək ordu yox kimidir. Hər şeyin yalan olduğu ortaya çıxdı. Xarici siyasətdə Ermənistanın müqavilə tərəfdaşı olan Belarus və Qazaxıstan KTMT-də ölkəmizi dəstəklədilər. Rusiya da açıq şəkildə onlara dəstək verə bilmədi. Nəticədə Ermənistanda qarışıqlıq başladı. Orada indi baş verən dəyişikliklərin əsasını Azərbaycan tərəfi qoydu. Düşmən ölkədə hakimiyyətdə kimin olmasının önəmi yoxdur; onlar anlamalıdırlar ki, Azərbaycanın torpaqlarını azad etmək, beynəlxalq hüququn tələblərini yerinə yetirmək lazımdır. Əks halda Ermənistanda daxili gərginlik ard-arda gələcək və daha da artacaq. Qonşu ölkələrlə isə problemlər durmadan çoxalacaq. Nəticədə qarışıqlıq hər an olacaq. Belə halda, Ermənistanda əhalini iqtidar tərəfindən yenə də aldatmağa cəhdlər olacaq. Amma bunun artıq faydası olmayacaq. Ordu biləcək ki, qarşıdakı Azərbaycan ordusu daha güclüdür. Artıq orada dilə gətirirlər ki, Azərbaycanın ikinci dərsi daha ağır olacaq. Yaxşı bilirlər ki, erməni ordusu bizim qarşımızda bir gün belə duruş gətirə bilməz. Önümüzdəki zamanda böhran orada daha da dərinləşəcək. Paşinyan artıq Köçəryanı həbs etdirib, Sərkisyanın isə ətrafını həbs etdirir. Bunlar da illərcə hakimiyyətdə olublar, mafiya kimi kök atıblar və müqavimət göstərirlər. Paşinyan isə küçədən gəlmiş bir adamdır və heç bir təcrübəsi yoxdur. O bilməyəcək ki, Qərbə, yoxsa Rusiyaya üz tutsun. Erməni diasporası qərbyönlü siyasət istəyir, amma hakimiyyət bunu apara bilmir.



***- Azərbaycan bütün bunların qarşılığında nə edir?***

- Ölkəmiz bütün bunların qarşılığında çox doğru bir siyasət aparır. Xəzərin statusu artıq öz həllini tapdı. Qonşu ölkələrimizlə çox normal münasibətlərimiz var. İqtisadiyyatımız durmadan möhkəmlənir. Ordumuzun büdcəsi isə durmadan artır. Bütün bunlar onu deməyə əsas verir ki, işğal olunmuş torpaqlarımız tezliklə geri qaytarılacaq.

***- Ermənistanda son aylarda baş verən inqilabi proseslərin fonunda Azərbaycanın tutduğu xətt doğrudurmu?***

- Azərbaycan yaranan bütün şanslardan istifadə edir. İlk növbədə, ölkəmiz Ermənistana yaxın olan bütün ölkələrlə çox yaxın münasibətlər qurub. Düşmən ölkənin mümkün və ardıcıl müttəfiqlərinin sayını minimuma endirmişik. Ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərin sayı durmadan çoxalır; Bakı həm də qarşıduran nəhəng blokların danışıq məntəqəsinə çevrilir. Ermənistanda isə proseslər tərsinə gedir - bu ölkə "izqoy" duruma düşüb, oradan heç bir tranzit xətti keçmir, beynəlxalq əhəmiyyət sıfırdı. Beynəlxalq proseslərin və hətta turizmin mərkəzinə çevrilən Azərbaycanın qarşısında bütün meqa-layihələrdən təcrid olunmuş Ermənistan dayanır... Bu ölkənin özü-özünü bu formaya salıb. Ermənistanla Azərbaycanın dövlət büdcəsi müqayisə olunmazdır. Müttəfiqlər dünyada tez-tez dəyişir. Amma Azərbaycan bütün tərəflərlə münasibətlərini qoruyur. Ölkəmiz müstəqil siyasət aparır və heç kəs deyə bilməz ki, İsrail yaxud İranla münasibətlərini dayandır. Dünyanın bütün dövlətləri bu cür siyasəti arzu edirlər. Ölkəmiz bütün şanslardan istifadə edir. Baş verə biləcək mənfi tendensiyalardan özünü qoruyur. Səhəri gün baş verə biləcək bütün xoşagəlməz hadisələrin qarşısını almağa hazırdır. Dünya yaxşı bilir ki, Azərbaycan tərəfi kiçik bir əməliyyatla torpaqlarını azad etməyə qadirdir.

***- Hazırda ordu quruculuğu necə gedir?***

- Bu gün günün tələblərinə uyğun peşəkar bir ordu var. Avqustun 10-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev fərmanının icrasının nəticələrinə həsr olunmuş xidməti müşavirə keçirdi. Sevindirici haldır ki, gənclərin həqiqi hərbi xidmətə çağırış prosesi yüksək səviyyədə təşkil edilir. Görülən işlər hərtərəfli təhlil olunur. Aparılan islahatlar nəticəsində günün tələbinə cavab verməyən, öz işində dönüş yaratmayan, ciddi nöqsanlara və qanun pozuntularına yol verən şəxslər vəzifələrindən azad edilərək məsuliyyətə cəlb edilir. Bu gün mətbuat, QHT-lər, ziyalılar, ehtiyatda olan zabitlər, Qarabağ əlilləri, şəhid ailələri və veteranlar görülən işləri, aparılan islahatları dəstəkləyirlər və keçirilən tədbirlərdə fəal iştirak edirlər. Bəzən bunların arasında elə şəxslər olur ki, sosial şəbəkələrdə və bir sıra mətbuat orqanlarında görülən işlərə kölgə salmağa cəhd göstərirlər. Hətta bir faktı da deyim ki, qardaş Türkiyə bəzi şeyləri bizdən götürüb. Biz elə bir ənənələr formalaşdırmışıq ki, bir çox dünya ölkələri bundan istifadə edirlər. Gənclərimizin orduya hazırlanması da çox önəmlidir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 6 ildir yaranıb və gəncləri orduya hazırlayır. Bu qurumda şəffaflıq təmin olunub.

**"Ordu dövlətindir, ordu hamımızındır. Hər birimiz silahlı qüvvələrimizin güclü olması üçün çalışmalıyıq, ordumuzla fəxr etməliyik. Ordumuzu iqtidar-müxalifət maraqlarına bölməməliyik. Çünki bu ordu hamımızı qoruyur"**



Təlimlər oldu və bir günün içərisində 10 mindən çox gənc təlimlərə cəlb olundu. Bu, Azərbaycan gəncinin ilk növbədə nə qədər cəsur olduğunun göstəricisidir. Aprel hadisələri zatən gənclərimizin nə qədər döyüşkən ruhda olduğunu göstərdi. Ən ideal qurumlarda belə çatışmazlıqlar var. Çalışmaq lazımdır ki, bu qüsurları aradan qaldıraq. Ordu dövlətindir, ordu hamımızındır. Hər birimiz silahlı qüvvələrimizin güclü olması üçün çalışmalıyıq, ordumuzla fəxr etməliyik. Ordumuzu iqtidar-müxalifət maraqlarına bölməməliyik. Çünki bu ordu hamımızı qoruyur. Düşmən gələndə fərq qoymur. Bizim elə bir düşmənimiz var ki, onun üçün heç bir dəyər yoxdur. Orduda qulluq edənlərə çox həssas yanaşmalıyıq. Mətbuat da bu məsələyə həssas yanaşmalı, verilən yazılara diqqət etməlidir. Son olaraq, onu deyim ki, bu gün çox yüksək səviyyədə vətənpərvərlik ruhu var. Bu çox sevindirici haldır. Gənclərimiz çox sevinə-sevinə orduya gedir. Valideynlərimiz övladlarının andiçmələrinə sevinə-sevinə gedirlər. Çox sevinirlər ki, övladları orduya gedirlər. Bu gün Azərbaycanda elə bir gənclik yetişib ki, onun torpaqları işğalda qalmayacaq. Qələbə bizimdir, alternativ yoxdur. Biz torpaqlarımızı mütləq azad edəcəyik.

***- Bu qədər üstün olduğumuz şəraitdə, sizcə, gözləmə mövqeyindəyik, yoxsa yaxın gələcəkdə hərəkətə keçəcəyik?***

- Hər an hərəkətə keçməyimiz baş verə bilər. Bir faktı deyim, kimsə 2016-cı il aprel ayının birində bilmirdi ki, nə baş verəcək. Amma bir gün sonra düşmənə sarsıdıcı zərbələr vurduq. O vaxt beynəlxalq şərtlər imkan vermədi ki, bütün torpaqlarımızı azad edək. Bu gün Çin kimi böyük dövlət problemlərini həll edə bilmir. Azərbaycan dövləti hər şeyi edir. Sadəcə, çalışır ki, az itki olsun. Xəzərin statusu barədə heç kim 20 il əvvəl bilmirdi ki, nələr olacaq... Gürcüstan və Ukrayna hadisələri göstərdi ki, vaxtsız qərar verməli olmaz. O dövlətlərin nüfuzuna nə qədər zərbə dəydiyi göz önündədir. 2016-cı il hadisələri ölçülü-biçili olmasaydı, görün nələr olacaqdı. Biz bu gün Mübariz İbrahimov, Ramil Səfərov, Raquf Orucov kimi qəhrəmanlardan danışırıq. Silahlı qüvvələrimizdə nə qədər belə qəhrəmanlarımız var. Bütün Ermənistana bərabər olan hərbçilərimiz var. Ordu hər şeyə hazırdır. İstənilən vaxt torpaqlarımızı azad etmək üçün hazırdır. Ali baş komandanın əmrini gözləyir. Zaman sübut edib ki, İlham Əliyev cənabları nə qədər ölçülü-biçili, müdrik, dövlətimizin maraqlarını necə qoruyan bir siyasətçidir. Onun apardığı siyasət mütləq öz bəhrəsini verəcək.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 172 (7061) 14 avqust 2018

# Səlim Müslümovun Ağsu aşırımındakı hökmranlığı qalır

## “Sabiq nazirin Bakıdakı adamları işdən çıxarılsa da, iddia olunur ki, doğulduğu rayonda bütün qohumları yüksək vəzifələr tutur




**Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovdan artıq 4 aydan çoxdur ki, xəbər yoxdur. Belə ki, prezident seçkisindən sonra ölkə başçısı İlham Əliyev Nazirlər Kabinetinin yeni tərkibi haqqında sərəncam imzaladı. Bu sərəncama əsasən, bir sıra nazirlər, komitə rəhbərləri dəyişdirildi və hökumətin yeni tərkibi formalaşdı. Yeni hökumətin tərkibində bir neçə nazir və komitə sədri ilə bərabər, Səlim Müslümov da təmsil olunmadı və sərəncamın imzalandığı aprel ayından etibarən o, mətbuata yalnız bir dəfə açıqlama verib.**

Mia.az saytı məlumat yayıb ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin nazir təyin olunduqdan sonra həyata keçirdiyi islahatlardan biri də sələfi Səlim Müslümovun qohumlarını qurumdan uzaqlaşdırmaqdır. Belə ki, S. Babayev bu dəfə Müslümovun qaynı Ağalar Xasayevi vəzifəsindən azad edib. Dövlət Sosial Müdafiə Fondunun Hərbi qulluqçular və xüsusi rütbəli şəxslərlə iş idarəsinin rəisi işləyən A. Xasayevin yerinə təyinat da olub.

Məlumata görə, nazirin DSMF-dəki ən diqqətçəkən dəyişikliyi isə bir müddət əvvəl olub. Belə ki, fondun direktor müavini Sərdar Xıdırov vəzifəsindən azad edilərək, onun yerinə vaxtilə DSMF-nin Səbayel rayon, daha sonra isə Qaradağ rayon şöbəsində müdir vəzifəsini tutmuş Cavid Abdullayev gətirilib.

Adıçəkilən fondda ən böyük dəyişikliyin isə bu ilin dekabr ayında aparılacağı gözlənilir. İddia olunur ki, həmin vaxtı fondun hazırkı direktoru Zakir Babayevlə bağlanan müqavilə başa çatacaq və bu səbəbdən DSMF-nin rəhbəri postuna yeni təyinat olacaq.

Yeri gəlmişkən, onu da qeyd edək ki, Müslümovun yaxın qohumlarını müxtəlif vəzifələrə təyin etməsi ilə bağlı xeyli sayda məlumatlar yayılıb. Belə ki, Səlim Müslümovun bir dayısı Ənvər Seyidəliyev Ağsunun icra başçısı, digər dayısı Fətulla Seyidəliyev “Kapitalbank”ın Ağsu filialının müdiridir. S.Müslümovun bibisinin əri Ağsu rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru olub. Həmçinin rayonun maliyyə şöbəsinin müdiri Radim Müslümov isə S.Müslümovun doğma qardaşıdır. Məlumatlara görə, icra başçısı Ənvər Seyidəliyevin qardaşı, yeni keçmiş nazirin digər dayısı Fazil Seyidəliyev isə rayon polis şöbəsində rəis müavinidir.

Qeyd edək ki, sabiq nazirə əsas ittiham Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsaitin yoxa çıxması ilə bağlıdır. Bildirilir ki, uzun illər boyu qurulmuş mexanizm əsasında yoxa çıxarılan məbləğ 2-2,5 milyard manata yaxındır. İddialara görə, mexanizm bir neçə ay əvvəl fondda aparılan yoxlamalar zamanı üzə çıxarılıb. Onun detallarının dəqiqləşdirilməsi, həmçinin qeyd olunan mexanizm üzrə hesablamalar aparılıb. Nəticə o qədər ilginc olub ki, birbaşa ölkə rəhbərliyi məlumatlandırılıb. İddialara görə, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun yeni kabinetdən kənarda qalmasının ən mühüm səbəbi də məhz bu məsələdir.

Xatırladaq ki, DSMF-yə 2002-ci ildən bəri S.Müslümov rəhbərlik edib. Yalnız 2013-2016-cı illər arasında qısamüddətli dövrdə fondun sədri Elman Mehdiyev olub. 2006-cı ildən fond yenidən S.Müslümovun nəzarətinə keçib - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tabe etdirilib.



**Hüquqşünas Əsabəli Mustafayev “Yeni Müsavat”a bildirib ki, bütün bu məlumatlar əslində Müslümovun həbsinə gətirib çıxara bilər:** “Cinayət Prosessual Məcəlləyə görə, araşdırmanın aparılmasının əsaslarından biri də kütləvi informasiya vasitələrində yayımlanmış məlumatlardır. Yəni əgər bu məlumatlarda cinayət tərkibi, konkret faktlar varsa, prokurorluğun vəzifəsidir ki, araşdırma aparsın və araşdırmanın nəticəsinə görə də qərar qəbul etsin. Tutaq ki, ya araşdırmanın başlanması barədə qərar qəbul etsin, ya cinayət işinin başlanmasından imtina etsin ki, sübutlar yoxdur. İctimai marağı nəzərə alaraq, yaxşı olardı ki bu barədə ictimaiyyətə də məlumat verilsin. Lakin hələ ki bu istiqamətdə hər hansı bir addım müşahidə etmirik. Əgər araşdırma aparılsa, yazılanlar təsdiqini tapsa, Müslümov barəsində cinayət işi başlana bilər. Yaxud da onun əməllərindən ola bilər ki, konkret zərərçəkmiş var. Əgər kütləvi informasiya vasitələrində yazılanlar kifayət etmirsə, hər hansı bir şəxs ona qarşı prokurorluq orqanlarına şikayət edə bilər ki, Müslümovun hansısa əməlinin qurbanı olub. Belə bir fakt olarsa da, ona cinayət işi başlana və Müslümov həbs edilə bilər”.

**İddialarla bağlı Səlim Müslümovla əlaqə saxlamağa çalışsaq da, bu, mümkün olmadı.**

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Qubad İbadoğlu Türkiyənin düşdüyü böhrandan danışdı

## “Bu prosesi güclü küləklə müşayiət olunan meşə yanğınlarına bənzətmək olar”

**Türkiyədə dolların məzənnəsi yeni həftənin ilk günü səhər saatlarından yenidən artmağa davam edib. Türkiyənin maliyyə naziri Berat Albayrak hökumətin vəziyyəti düzəltmək üçün bəzi planlar işlədiyini bildirib. Eyni zamanda Türkiyə Mərkəzi Bankı maliyyə bazarlarında vəziyyəti sabitləşdirmək üçün bəzi tədbirlər gördüyünü elan edib. Mərkəzi Bank bildirib ki, bankların türk lirəsinə olan ehtiyacı ödəniləcək, türk lirəsi ilə əməliyyatlar aparan banklara əlavə stimul veriləcək. Habelə bankların TL-yə dəyişdirmək üçün istifadə edə biləcəyi valyuta ehtiyatı 7.2 milyard avrodan 20 milyard avroya qaldırılıb.**

Bununla belə, Mərkəzi Bankın maliyyə bazarlarına müdaxiləsi o qədər də effektli olmayıb və lirə yenidən hərraclarda dəyərinin daha 7 faizdən çoxunu itirib.

**Azərbaycanın iqtisadçı-alimi, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu** bildirir ki, Türkiyədə lirənin sürətlə dəyər itirməsinin başlıca səbəbi maliyyə-kredit və bank siyasətinin düzgün qurulmaması və çevik iqtisadi qərarların gecikdirilməsi ilə bağlıdır: “Əgər rəsmi dəvət alsam, qardaş ölkənin iqtisadiyyatını böhrana doğru gedən yoldan geri qaytarmağa töhfə verə bilərəm. Əks təqdirdə, siyasi bəyanatlar dayandırılmazsa, eləcə də adekvat, təcili və təxirəsalınmaz iqtisadi qərarlar qəbul olunmazsa, yaxın 10 gündə Türkiyə iqtisadiyyatı çökə bilər. Türkiyənin zəifləməsi bütövlükdə bölgənin maraqlarına, ayrılıqda isə Azərbaycanın mənafeyinə uyğun deyil”.

**“Yeni Müsavat”a danışan iqtisadçı-alim deyir ki, Türkiyə təlaş içindədir:** “Türkiyə iqtisadiyyatında böhran simptomları sürətlə artır. Qardaş ölkənin qarşılaşdığı çətinliklərin yaratdığı problemləri və onun Azərbaycana təsirlərini dəyərləndirib, türk hökumətinə kömək etməyə hazır olduğum barədə açıqlama verəndən sonra xeyli məktublar alıram. Birinci qrup məktubların əsas qayəsinin Türkiyədə baş verənlərə biganə qalmamaq və hərəkətə keçmək olduğunu nəzərə alaraq



bəzi məsələlərə aydınlıq gətirmək istərdim. Məlumatınız üçün əlavə edim ki, həmin açıqlama əslində müəyyən müzakirələrdən sonra baş tutmuşdu. Mən artıq ötən həftənin ortalarından belə bir dəvət almışam. Amma bu məsələnin səlahiyyət və məsuliyyətini dərk edərək, edilən müraciətləri dövlət səviyyəsində təşkil etməyi və rəsmiləşdirməyi xahiş etmişdim. Hazırda da eyni adlı müraciətlər alıram, türk iş adamları, akademik dairələrlə müzakirələrimiz başlayıb. Onlara məsləhətlərimi əsirgəmirəm. Amma yenə də qeyd etmək istərdim ki, bu problem çözmək riskini götürmək və onları dəf etmək səlahiyyətlər tələb edir”.

**Qardaş ölkədə baş verənlər barədə hələ bir il əvvəl açıqlama verdiyini deyən Q.İbadoğlunun sözlərinə görə, siyasi müdaxilələr qərarların monopoliyaya alındığı, Mərkəz Bankın gerçək müstəqilliyinin təmin olunmadığı, xarici faktorlardan asılılığın artdığı, siyasi elitanın korporativ və korrupsiya maraqları ilə bazar iqtisadiyyatına keçidin əngəlləndiyi, mövcud iqtidara etimadın itirildiyi istənilən ölkə iqtisadiyyatında milli valyuta böhranı baş verə bilər:** “Türkiyə ilə Azərbaycanı bu mənada fərqləndirən cəhətlər odur ki, Türkiyədə orta təbəqə, bazar iqtisadiyyatı institutları Azərbaycandan güclü olsa da, tədiyə balansının durumu və beynəlxalq valyuta ehtiyatları zəifdir. Digər sadaladığım faktorlar arasında isə demək olar ki, fərq yoxdur. Hər iki ölkədə xarici şoklardan asılılıq güclü olsa da, onların, sadəcə, forması fərqlidir. Dünya bazarında neftin qiymətinin 70 dollar ətrafında sabitləşməsi Azərbaycanın durumunu müvəqqəti olsa da yaxşılaşdırıb. Mənə ünvanlanan sonuncu qrup suallar lirənin dəyərsizləşməsinin böhrana gətirib çıxara biləcəyi ilə əlaqədardır. Bu prosesi güclü küləklə müşayiət olunan meşə yanğınlarına bənzətmək olar. Bu zaman həm meşələr sıradan çıxır, həm də yanğına qarşı istifadə olunan resurslar tükənir. Türkiyədə lirə böhranı ilk növbədə bankları və yerli istehsal şirkətlərini sıradan çıxaracaq və onların müflisləşməsini şərtləndirəcək. Bundan sonra böhran iqtisadiyyatın digər sektorlarına xidmət, ticarət və inşaat bölməsinə də siyarət edəcək, əgər təcili və təxirəsalınmaz tədbirlər həyata keçirilməzsə”.

**İqtisadçı-alim deyir ki, Türkiyəni böhrandan çıxaracaq iqtisadi tədbirləri 3 qrupda təsnifləşdirmək olar:** “İlk növbədə 20 faizə çatan inflyasiyanı durdurmaq hədəflənməli və bunun üçün monetar və qeyri-monetar amillərdən çevik istifadə edilməki, istahlakçıların gözləntiləri idarə olunmalıdır, İkincisi, invsestorların etimadını və inamını təmin edən siyasi bəyanatlar deyil, iqtisadi mexanizmlər işə salınmalıdır. Üçüncüsü, Mərkəzi Banka gerçək müstəqillik verilməlidir. Mərkəzi Bank ehtiyat normaları, uçot dərəcələri və açıq bazar əməliyyatları ilə çevik tənzimləmə vasitələrindən istifadə etməlidir. Siyasi tədbirlərə gəlincə, əvvəla, ABŞ və Avropa ilə diplomatik gərginlik və ticarət müharibəsi aradan qaldırılmalıdır. İkincisi isə Türkiyə beynəlxalq maliyyə kredit təşkilatları ilə danışıqlara başlamalıdır”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**



# Günəşə uçmaq nəyə lazımdır

Zamin HACI
zaminhaci@gmail.com

## "Pulu falçılara xərcləyirlər, problemin həllini ziyalının boynuna qoyurlar"

*(Füzulidən dəyərli ziyalı Yalçın İslamzadə)*

**«Qaçqınkom»un binasından özünü atıb intihar eləmək istəyən əlil idmançımı müğənni Manaf Ağayev xilas etmişdir. Deyir, adam Füzulidən imiş. Manaf müəllim də bunu təsdiqləyib, deyir, Füzulidən kim intihar eləmək fikrinə düşsə, məni çağırırlar, gedib xilas edirəm, çünki rayonun ağsaqqalıyam. Füzulidə doğulub boya-başa çatmış (boya çatmağım dəqiqdir, ikinci hissəsinə o qədər əmin deyiləm) bir şəxs olaraq Manaf müəllimin sözlərini təsdiqləyirəm, adımla zamin dururam. Manaf müəllim toylar kralıdır. Ümumiyyətlə, Füzuli rayonundan ancaq krallar çıxır. İsa Qəmbər siyasətin, İqbal Ağazadə ümidlərimizin kralı idi, mən də, təvazökarlıq olmasın, köşələr kralıyam. Seymur Baycan rayonun adını doğruldub AYB kralı ola bilmədiyi üçün onu Gürcüstana qovmuşuq.**

Ad demişkən, elə Manaf müəllim də adına layiq işlə məşğuldur, çünki deyilənə görə, "manaf" - yüksəkdə, ucada duran mənasını verir. Yəni kim uca yerə çıxsa, Manaf müəllim gəlib onu qurtarır. Halal olsun. Kaş hər rayonun belə müğənnisi olsun. Hər işi dövlətin ixtiyarına buraxmaq olmaz. Vətəndaşlar da gərək təşəbbüskar olsunlar. Siyasətə çox qarışmadan dövlətin də öz işini məsuliyyətlə gördüyünü qeyd etməyə borcluyuq, misal üçün, baş nazir keçən ay körpüyə çıxıb intihar eləmək istəyən bir şəxsi qurtarmışdı. Sözgəlişi, Novruz müəllimin o qəhrəman hərəkəti kinorejissor Vaqif Mustafayevin nə qədər uzaqgörən olduğunu göstərmişdi, çünki hələ neçə illər qabaq Vaqif müəllim Xarici Dillərin müəllimi işləyən Novruz Məmmədovu "Fransız" filmində Fransa səfiri roluna çəkmişdi və orada sünnətdən qaçıb "Eyfel" qülləsinin maketinə dırmaşan, özünü fransız elan edən azərbaycanlını xilas etmək, maketdən düşürtmək üçün məhz Novruz müəllimin yaratdığı obraz köməyə çağırılmışdı. Yəni bizdə tək həyatdan süjetlər götürüb kinoya çəkmirlər, həm də həyat özü kinodan süjet çırpışdırır.

Mövzudan qırağa çıxmaq olmasın (lap olsun, guya ayrı nə işimiz var), bugünlərdə Nobel ödüllü yazıçı Vidiadxar Naypol öldü. Onun bioqrafiyasında yaddaqalan detallardan biri 2011-ci ildə Bakıya səfər etməsi, Xarici Dillər Universitetimizdə qonaq olmasıydı. Həmin vaxt universitetdə Plov Festivalı keçirilmiş, Naypol bizim aşın qazmağından yemişdi. Demək, o, həyatdan nakam getməmişdir! Bu isə bizim regionun vacib dövləti olmağımızı bir daha sübut edir! O cümlədən, NASA srağagün Günəşdə araşdırma aparmaq üçün "Parker" zondunu kosmosa fırlatmışdır. Başa düşmürəm, Günəşi öyrənmək üçün neçə milyon kilometr uçmaq nəyə lazımdır. Axı Günəş Yerin özündə, hamının gözünün qabağında durubdur, bu isə vətənimiz Azərbaycandır! Şübhəsiz, Azərbaycan dünyanın Günəşidir. Yazını elə bu xoş sözlərlə məmnuniyyətlə bitirərdim, əminəm ki, bütün Füzuli sakinləri də məndən bunu həvəslə gözləyir, lakin mümkün deyildir, üzrlü sayın - lənətə gəlmiş köşə üçün ayrılan yerdən hələ bir az qalır, onu doldurmaq vacibdir.

O yeri dünən azadlığa çıxan İlqar Məmmədova ithaf edək, arzulayaq ki, İlqar bəy bir daha vizasız İsmayıllı rayonuna getməsin, uca millətimizi, pərəstişkarlarını, həmçinin Füzuli rayon sakinlərini dərdə salmasın. Biz, ümumiyyətlə, onu Füzuli rayonuna dəvət edirik, gəlsin, Manaf müəllimin konsertlərinə qulaq assın. Yəqin həmin vaxta buludlar dağılar, Günəş çıxar. Günəş temasında bir lətifə də yadıma düşdü, yazını onunla təntənəli şəkildə bağlı elan edirəm: "Bir gün "Azərkosmos"un müdiri deputat Səyavuş Novruzovu çağırır, deyir biz kosmosa ilk azərbaycanlını göndəririk, bu xoşbəxt püşk sizin üzünüzə gülüb, özü də Günəşə uçacaqsınız. Səyavuş müəllim təlaşla deyir: "Axı Günəş məni yandırar". Müdir deyir: "Narahat olmayın, Səyavuş müəllim, biz sizi gecə göndərəcəyik".

---




# ABŞ Paşinyanı "ölümə" göndərir - ilginc gözlənti

## Konqresin 50 üzvünün Trampa çağırışının pərdəarxası; erməni baş nazir Putinlə açıq toqquşmaya sürüklənir - motiv; işğalçı ölkə regionda Türkiyəni əvəzləyəcək?

## **erməni nəşri:** "Müharibə qapımızı döyür, özü də bu dəfə Azərbaycanla yanaşı, Rusiya ilə vuruşmalı olacağıq..."

**Ermənistanın baş naziri Nikol Paşinyan gələn ay ABŞ-a getməyə hazırlaşır. Düşmən ölkənin baş nazirinin əsas hədəfi BMT Baş Məclisinin növbəti sessiyası çərçivəsində ABŞ prezidenti Donald Trampla görüşə nail olmaqdır. Ayaqüstü yox, məhz normal, haradasa yarım saat çəkən bir görüşə.**

Ermənistanda hökumətə bağlı media dəridən-qabıqdan çıxaraq, artıq indidən hələ baş tutmayan və baş tutması da bir elə real görünməyən görüşün təbliğatını aparır. Hətta bir az da Amerika tərəfinə minnət qoyulur ki, "Ağ Ev başçısına başucalığı gətirəcək" belə bir təması niyə gecikdirir? Guya Paşinyan ölkədə artıq dərin islahatların həyata keçirilməsi ilə məşğuldur ki, bu da ABŞ-ın, Qərbin maraqlarına, tələblərinə tamamilə cavab verir. Əslində isə belə bir şey yoxdur.

*****

Bu arada ABŞ Konqresinin 50 üzvü prezident Donald Trampı Ermənistanın yeni baş naziri Nikol Paşinyanla görüşməyə çağırıb. "Yeni Müsavat"ın məlumatına görə, bu haqda "The Washington Freee Beacon" nəşrində Adam Kredo yazıb. Müəllif eyni zamanda Türkiyə ilə ABŞ arasında münasibətlərdə getdikcə artan gərginlikdən də bəhs edib.

Onun sözlərinə görə, görüş tərəfdarı olan amerikalı konqresmenlər ABŞ-la Ermənistan arasında əlaqələri möhkəmlətmək imkanı görürlər: "Ona görə ki, Türkiyə ilə diplomatik münasibətlər kəskinləşməkdədir - hansı Türkiyə ki, ənənəvi olaraq, Ermənistanla soyuq münasibətdədir".

"ABŞ-ın xalq inqilabı dalğasında Ermənistanla əlaqələri möhkəmləmək üçün şansı var", - deyə parlamentarların Trampa müraciətində qeyd olunur. Konqresmenlərin fikrincə, ola bilsin, Ermənistanda inqilab silsilə islahatlara gətirsin.

Yəni əslində onlar da işğalçı ölkədə dərin islahatların reallaşacağına bir elə inanmırlar. Təbii ki, əsas amil Rusiya ilə bağlıdır. Bununla belə, məqalə müəllifi qeyd edir ki, Tramp administrasiyasında Ağ Ev başçısının Nikol Paşinyanla görüş mümkünlüyünü şərh eləməklə bağlı nəşrin sorğusunu cavab verməkdən imtina olunub. Ağ Evin Milli Təhlükəsizlik Şurasında da məsələni şərh eləməkdən imtina ediblər.

"Ancaq konqresmenlərin məktubu ilə tanış olan Tramp administrasiyasının keçmiş məmurlarından biri söhbət zamanı bildirib ki, Ağ Ev məqamdan istifadə eləməli və Ermənistanla yeni əlaqələr qurmalıdır. "Hazırda Türkiyə ABŞ-dan və bizim xaricdəki milli maraqlarımızdan üz çevirir. Ermənistan isə Amerika ilə daha sıx əlaqələr qurmaq və əməkdaşlığı genişləndirmək üçün mümkün hər şeyi edir. Prezident Tramp bunu qəbul eləməlidir, nəinki Ərdoğanın önündə geri çəkilməlidir", - deyə keçmiş məmur bildirib" - məqalənin sonunda vurğulanır.

*****

Şübhə yox ki, ABŞ prezidenti ilə görüş Paşinyana daha çox təbliğati anlamda lazımdır və guya Qərbə yaxınlaşmaq görüntüsü yaratmaq, bu fonda da sonuncudan, həmçinin, erməni lobbisindən maliyyə dəstəyi almaq məqsədi güdür. Ancaq artıq bəllidir ki, nəinki Qərb və ələlxüsus ABŞ, hətta varlı erməni lobbisi də pulu elə-belə vermir. Onların əsas şərti Paşinyan hökumətinin Rusiyanın təsir dairəsindən uzaqlaşmaq yönündə real addımlar atmasıdır.

Bu isə Ermənistanın yeni hökuməti üçün az qala, siyasi suisid (intihar)a bərabər bir şeydir. Onsuz da Moskva İrəvana qəzəblidir və xüsusilə də Rusiyaya qarşı yeni və daha sərt sanksiyaların qəbul edildiyi hazırkı dönəmdə Paşinyanın Ermənistanda Qərbin, Amerikanın mövqeyini möhkəmlətməyə yönəlik addımı Kremlin səbr kasasını daşıra bilər. Müxtəsəri, Paşinyanı Putinin qəzəbinə gətirmək - elə onu ölümə göndərmək kimi bir şeydir.

Bu üzdən erməni baş nazir Rusiya ilə ABŞ (Qərb) arasında hələ ki oynamaq, manevr eləmək zorundadır. Bu da Qərbin qərar verən mərkəzləri üçün kifayət deyil. Həmin mərkəzlər Ermənistanın Rusiyadan uzaqlaşmaq istəyinin praktik əlamətlərini görmək istəyir. Ancaq vurğulandığı kimi, bu uzaqlaşma İrəvana şimaldan sürprizlər vəd edir - o cümlədən Qarabağ məsələsində. Rusiyanın nəinki ekspert çevrələrindən, rəsmi dairələrindən də bununla bağlı İrəvana açıq xəbərdarlıqlar gəlməkdədir.

*****

Kremlin mümkün sürprizləri barədə son vaxtlar Qərbə bağlı erməni nəşrləri tez-tez yazır.

"Biz artıq yeni siyasi reallıqda yaşayırıq. Özümüzdən bu fikri nə qədər uzaqlaşdırmağa çalışsaq da, artıq müharibə qapımızı döyür. Özü də bu dəfə təkcə Azərbaycanla yox, Rusiya ilə də vuruşmalı olacağıq. ABŞ hökumətinin Rusiya şirkətlərinə qarşı yeni sanksiyalar tətbiq edəcəyi barədə açıqlamasından sonra Moskva artıq qəti şəkildə özündən çıxıb".

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə armenianreport.com-dakı məqalədə deyilir. Müəllifə görə, Rusiyaya Qarabağda müharibə həm Ermənistana qəzəbli olduğuna görə, həm də beynəlxalq sanksiyalar üzündən getdikcə daha da ağırlaşan daxili durumdan narazı Rusiya əhalisinin diqqətini yayındırmaq üçün lazım gələ bilər.**

"Ssenarilərin ən müxtəlif olması mümkündür. Ancaq xüsusilə də Aleksandr Duqinin bir sözünü ciddiyə almağa dəyər. Duqin açıq şəkildə demişdi ki, Vladimir Putin bizim ölkəmizdə baş verənlərdən bərk qəzəblənib. Bu isə o deməkdir ki, Rusiya tam mümkündür ki, ölkəmizə qarşı müharibənin iştirakçısı olsun", - deyə məqalədə təlaşla bildirilir.

**Daha sonra Ermənistandakı Rusiya hərbi faktoruna diqqət yönəlidilir:** "Bəli, bizim xoşbəxtlikdən Rusiya ilə ümumi sərhədimiz yoxdur. Amma Gümrüdə hələ də Rusiya hərbi bazası durur. Bütövlükdə isə Putin Rusiyası həmişə bizə qanlı hamam düzəltmək imkanındadır. Deyəsən bu yöndə iş də gedir. Rusiya KİV-lərindəki yazılardan bunu görmək olar" - yazıda qeyd olunur.

Erməni nəşrindəki son təhlili yazıdan da görmək olar ki, yeni hökumət bir yandan, islahatlar aparıb Qərbin, ABŞ-ın etimadını qazanmaq istəyirsə, digər yandan, Rusiyadan ciddi şəkildə çəkinir, islahatların bədəlinin odlquca ağır ola biləcəyindən ehtiyatlanır. İslahatların aparılmaması, gecikməsi isə Paşinyan iqtidarının sonunun tezləşməsi və əks-inqilabın qaçılmazlığı deməkdir.

Görək, bu dilemmanı yeni hökumət necə həll edəcək...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Aktauda Xəzər anlaşması: dənizin üstü bölündü, qaldı altı..

## Üçüncü onillikdir davam edən müzakirələrlə bağlı fərqli yanaşmalar; **Tofiq Zülfüqarov:** "Statusun elementlərinin mərhələ-mərhələ qəbul olunması Azərbaycanın xeyrinədir"; **İlham Şaban:** "Azərbaycan Xəzərdəki qonşuları ilə bir hüquqi davranış kitabçası əldə etdi"

**Avqustun 12-də Qazaxıstanın Aktau şəhərində 5 Xəzəryanı dövlətin-Azərbaycan, Rusiya, İran, Qazaxıstan və Türkmənistanın iştirakı ilə Xəzər dənizinin statusu haqqında konvensiya imzalandı. 1996-cı ildən bəri davam edən müzakirələrdə, nəhayət, nəticə əldə olunması irəliyə doğru mühüm addım olaraq dəyərləndirilir.**

Konvensiyaya görə, Xəzər artıq nə göl, nə də dəniz sayılır. Bu isə dünyanın ən böyük qapalı su hövzəsinə xüsusi status verir. Xəzərin milli sektorlara bölgüsü yalnız onun dibində baş verəcək, su hövzəsi isə başqa prinsiplərə əsasən müəyyən olunacaq.

Xəzər akvatoriyası daxili sular, ərazi suları, balıqçılıq zonaları və ümumi məkandan ibarət olacaq. Ərazi sularında 15 dəniz milindən çox olmamaq şərtilə, sahil dövlətləri milli suverenliyə malik olacaq. Bundan başqa 10 mil hüdudunda balıqçılıq zonalarında sahilyanı dövlətlər öz hüdudları daxilində müstəsna hüquqlar əldə edirlər. Dəniz məkanının qalan hissəsi ümumi şəkildə istifadəyə verilir.

Dənizin dibi isə milli sektorlara bölünəcək. Bununla bağlı mübahisələr SSRİ dağılandan bəri mövcuddur. Əslində Xəzərin dibinin dəyişkən orta xətlə bölgüsü barədə Azərbaycan, Rusiya, Qazaxıstan və Türkmənistan razılığa gəlmişdilər. Lakin o zaman İran buna ciddi etiraz etmişdi. Çünki belə olan halda İrana dəniz şelfinin, sadəcə, 13-14%-i düşürdü. Ona görə Tehran, ümumiyyətlə, dənizin 5 bərabər hissəyə bölünməsini (hərəyə 20%) tələb edirdi. İran bu səbəbdən heç bir əsas olmadan "Sərdar Canqal" adlandırdığı yataqda qazıntı işlərinə başlamışdı. Elə Türkmənistanın özü də Azərbaycanla "Azəri", "Çıraq", "Kəpəz" yataqları ilə bağlı mübahisə aparır.

Konvensiya dənizin təkinin və dibin bölünməsi ilə bağlı suallara aydınlıq gətirməyib. Burada, sadəcə, "Xəzərin dibinin və təkinin bölünməsi beynəlxalq hüququn ümumqəbul olunmuş prinsip və normaları əsasında həmhüdud və sahilyanı dövlətlərin razılaşması ilə həyata keçirilir" deyə, cümlə var.

Konvensiya dənizin dibindən boru kəmərlərinin keçməsinin də qarşısını almır. Azərbaycan və Türkmənistan üçün bu məsələ həm də "Transxəzər" qaz kəmərinin çəkilməsi baxımından maraqlı olub. Sənəddə aydın şəkildə yazılıb ki, hər bir ölkə kəmərin keçdiyi dövlətin razılığını almaqla istənilən boru xəttini çəkə bilər. Lakin Xəzərdəki layihələrin ətraf mühitə təsiri ilə bağlı imzalanacaq protokol Rusiya və İrana gələcəkdə bu tip layihələri bloklamağa əlavə vasitə verə bilər.

Konvensiyanın önəmli bəndlərindən biri də burada bölgəxarici dövlətlərin Xəzərə çıxışının əldə etməsinin qarşısının alınmasından ibarədir. Konvensiyada Xəzər dənizində 3-cü ölkələrin (yəni qeyri-Xəzəryanı dövlətlərin) silahlı qüvvələrinin iştirak etməsinin yolverilməzliyi barədə müddəa var. Buna görə "Xəzəryanı dövlətlər öz ərazilərini razılığa gələn dövlətlərin (yəni bu konvensiyanı imzalayan-red.) əleyhinə hərəkət edən və digər hərbi fəaliyyət üçün heç bir başqa dövlətin ixtiyarına verməyəcəklər".

Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi ilə bağlı son sammit Britaniya KİV-də müzakirələrə səbəb olub. Modern.az xəbər verir ki, Britaniya nəşrləri dünyanın ən böyük gölü ətrafında mübahisənin tamamlanmasının əsasən Rusiya və İran üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Bəzi nəşrlər hətta bunu Rusiyanın bölgə üzərində nəzarətinin artması kimi qiymətləndirib. "Rusiya, Xəzər dənizinin bölünməsi ilə bağlı əhəmiyyətli bir saziş vasitəsilə İran və Orta Asiya qonşuları ilə əməkdaşlığı dərinləşdirməyə dəvət edib. O, bununla uzun müddət gözlənilən enerji layihələri üçün yol açmağa və dünyanın ən böyük gölü üzərində hərbi üstünlüyünü təsdiqləyib" - nüfuzlu "Financial Times" nəşri yazır.

**"İran və Rusiyanı daha çox maraqlandıran məsələ təhlükəsizlik və silahlanma prosesinin qarşısını almaqdır. Eyni zamanda Rusiya və İran təkidlə qeyri-Xəzər ölkələrinin bu və ya digər şəkildə Xəzər hövzəsinə daxil olmasını istəmirlər. Söhbət təkcə hərbi cəhətdən getmir, həmçinin biznes baxımından da Xəzər hövzəsini 5 ölkə üçün saxlamaq niyyətindədirlər".**

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Xəzərin nə göl, nə dəniz olmadığı barədə yanaşmanı da dəyərləndirdi:** "Bu yanaşma bir növ kompromisdir. Bəziləri Xəzəri dəniz, bəziləri göl saymaq istəyirdi. Amma bunun əsasında o mövqe dayanır ki, hansı əsaslarda bölgü aparılacaq. Yəni bunun işarəsi mövcuddur. Mən hesab edirəm ki, məsələləri mərhələli qaydada həll etmək düzgün taktikadır. İndiki konvensiya bu məsələlərin bir hissəsinin həll olunduğunu göstərir". **Yekun razılaşma Azərbaycanın maraqlarına nə dərəcədə uyğundur? T.Zülfüqarov:** "Bu konvensiya bir mərhələ kimi qəbul oluna bilər. "Transxəzər" layihələrin bu və ya digər şəkildə həyata keçirilməsi proseduru daha da asanlaşır, bu da təbii ki, Azərbaycanın xeyrinədir". **Bu konvensiyanın "Rusiyanın diplomatik" qələbəsi kimi yozulmasına gəldikdə, eks-nazir bunları bildirdi:** "Ümumiyyətlə, statusun qəbul olunması hər bir ölkənin xeyrinədir. Yəni hansısa normaların hamı tərəfindən qəbul olunması qeyri-aydınlıq vəziyyətinə daha da xeyir gətirir. Bu baxımdan mən, doğrusu, inanmıram ki, Xəzər hövzəsində beynəlxalq oyunçuların hərbi, yaxud digər cəhətlərdən nüfuzu mövcud ola bilər. Bu, daxili hövzə, beynəlxalq çıxışı olmayan məkandır. Bu baxımdan statusun elementlərinin mərhələ-mərhələ qəbul olunması Azərbaycanın bir proses olaraq xeyrinədir. İndiki mərhələdə Rusiya bu və ya digər təzyiqlərə məruz qalır. O mənada təbliğat üçün müəyyən fikirlər işlədilə bilər. Mən heç də istisna etmirəm ki, Rusiyanın diplomatik qələbəsi olsa belə, bu, Azərbaycanın maraqlarına zidd deyil. Çünki biz real vəziyyəti analiz edərkən başa düşürük ki, mən dediyim kimi, "Transxəzər" layihələrin icrası, mineral resursların istifadəsi baxımından bu nəticə Azərbaycanın faydasındadır". **Ancaq ekspert hələ bəzi məsələlərin həll edilmədiyi üçün mübahisələrə birdəfəlik son qoyulmadığı qənaətindədir:** "Amma ümumiyyətlə, tendensiya mövcuddur ki, şimalda yerləşən və keçmiş Sovet İttifaqını təşkil edən müstəqil ölkələrin mövqeyinin yaxınlaşması göz qabağındadır. İranla olan problemlər gözləniləndir. Amma fikrimcə, bu da həllini tapacaq. Çünki indi İranın, ya da Türkmənistanın fərqli yanaşması artıq aktual deyil".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə hesab edir ki, Xəzərin o tayında heç bir sensasiya olmadı:** "5 Xəzəryanı dövlət başçısı 22 il üzərində iş gedən sənədi - konvensiyanı imzaladılar və hamısı da xoş ifadələr, gələcəyə verilən töhfələr və sair protokol qaydasında cümlələr işlədib ayrıldılar. Əslində isə... Xəzər adlı qapalı hövzə 22 il əvvəl olduğu kimi, nə dəniz, nə də göl olması bu sənədin imzalanması ilə bilinmədi. Çünki ona nə BMT-nin 1982-ci il Dəniz Konvensiyası tam şamil edilmədi, nə də göllərin bölünmə mexanizmi burada özünü göstərmədi. Bir növ hər ikisindən götürülmüş hibrid bir mexanizmə rast gəlirik. Suyun üstünün bölünməsində dəniz prinsipləri Xəzərə uyğunlaşdırılıb. Dibin bölünməsində sektoral məsələ - orta xətt tövsiyə edilir. İran buna qarşıdır, imzalanan konvensiya isə nəzərdə tutur ki, dənizin dibi tərəflərin qarşılıqlı razılığı əsasında bölünür, razı deyilsinizsə və ya razılığa gələ bilmirsinizsə, öz işinizdir - 100 illərlə dinc mübahisə etmək hüququnuz var. SSRİ dağılandan sonra Qazaxıstan, Azərbaycan və Türkmənistan sektoral bölgünün tərəfdarı kimi çıxış edib, hətta Azərbaycan 1995-ci il Konstitusiyasına edilən dəyişikliyə görə Xəzərin Azərbaycan hissəsini özünün ayrılmaz hissəsi, onun sərhədlərini isə dövlət sərhədi kimi tanıyırdı. Azərbaycanın bu addımı Qazaxıstan və Türkmənistanı da bu cür addımlar atmağa sövq edirdi və nəticədə Rusiya üçün özünün gəmilərinin - əsasən də hərbi donanması üçün - sərbəst hərəkəti üçün Xəzərdə limanlar kifayət qədər daralırdı. Ona görə də bu Konvensiya Rusiyanın strateji maraqları üçün hüquqi əsaslar verdi: 5 sahilyanı dövlət 15 dəniz mili olmaqla, ərazi sularının koordinatlarını müəyyənləşdirir - bu ərazi həmin ölkələrin eyni zamanda dövlət sərhədi hesab edilir. Daha 10 millik zona balıq ovu zonası kimi qəbul edilir. Yerdə qalan sular neytral sulardır - gediş-gəliş üçün sərbəst zona. Türkmənistanın Cənub Qaz Dəhlizinə qoşulması ilə bağlı Rusiya və Qərbin "N" sayda KİV-lərinin məlumatları vaxtilə Bakı-Ceyhan kəməri hələ layihə olan vaxtda yenə eyni qaydada Qazaxıstandan Bakıya sualtı neft kəməri tikintisi ilə bağlı ajiotajdan başqa bir şey deyil. Bir layihənin ki, kommersiya baxımından cəlbediciliyi olmadı, ha təriflə, ha gözəlləmə de, ha yaz ki, borunun elçiləri Ağ Evdən gəlir - mənasız şeylərdir". **Azərbaycan nə uddu? İ.Şabanın fikrincə, Azərbaycan dörd bir tərəfindəki Xəzər qonşuları ilə bir hüquqi davranış kitabçası əldə etdi:** "Bir baxın, neftin qiymətləri 2014-dən enəndən sonra SOCAR Xəzərdə neçə Qərb şirkəti ilə müqavilə imzalayıb və neçəsi ilə danışıqlar aparır ki, bunları reallaşdırsın. Bəs qonşuları nə edib? Heç bircə müqaviləyə imza atıblarmı? Bu müddətdə Xəzərin o tayından Bakı-Ceyhan kəməri vasitəsilə təqribən 3 mln. ton neft daşınırdısa, ötən il bu həcm 6.4 . tona qədər artırıldı. Bu il tranzit həcmləri 6 ayda 5 mln.-dan bir qədər artıq olub. Azərbaycan əvvəllər Ceyhana ancaq Türkmənistan nefti daşıyırdısa, indi Qazaxıstan və Rusiyadan gələn həcmlər də əlavə olunub. Xəzərdə əməkdaşlıq bizim fəallığımıza bağlanır".




❑ **E.PAŞASAOY,**
**"Yeni Müsavat"**



# Atlantizmin böhranı, yoxsa Tramp daha bir seçkini udmaq istəyir?

Hüseynbala SƏLİMOV

**Düşünürük ki, birinci soyuq müharibə dövründə NATO daxilində ən kiçik ziddiyyət belə kommunist blokunun təbliğat maşınının sayəsində azı on dəfə şişirdilərək dünyaya çatdırılardı. Ona görə də belə hallara olduqca az təsadüf olunurdu.**

Əlbəttə, bu, o demək deyil ki, o dövrlərdə Blokun hər hansı problemi yox idi. Məsələn, 1974-80-ci illərdə Yunanıstan Türkiyə ilə yaşadığı ziddiyyətlərə görə NATO-nun hərbi strukturunda fəaliyyət göstərmirdi.

Eləcə də 1966-cı ildə Fransa da təşkilatın hərbi strukturunu tərk edərək düz 2009-cu ildə siyasi strukturda qalmaqla kifayətlənmişdi. Amma gəl, ümumi tendensiya bu idi ki, NATO sistemli şəkildə güclənir, dünyanın birinci hərbi blokuna çevrilirdi. Təkcə bircə fakt, üzvlərin sayının 12-dən 29 çatması bunun ən bariz nümunəsi və təsdiqidir.

Sonrakı dövrlərdə ciddi blokdaxili ixtilaflar xatırlamırıq. Yalnız D.Tramp hakimiyyətə gələndən qəribə bəyanatlar və hətta ABŞ-ın Bloku tərk edəcəyi haqda sərsəm çağırışlar səslənməyə başladı.

Düzdür, prezident B.Obamanın vaxtında da Blok üzvlərinin müdafiə xərclərini artırması məsələsi gündəmdə idi, amma bu, indiki kimi dava-dalaş səviyyəsinə çatmamışdı.

Sonuncu NATO sammiti də bu mənada diqqətdən kənarda qalmadı. D.Tramp orada nələr demədi? Ən yadda qalanı budur ki, ABŞ prezidenti Almaniyanı "Rusiyanın nəzarətində olan ölkə", Ukraynanı isə korrupsiya içində boğulan dövlət adlandırdı və Krımın Rusiyaya məxsus olduğunu bildirdi və bunu belə "izah" etdi ki, krımlıların hamısı rusca danışır! Yalnız Makedoniyanın Blokla danışıqlara dəvət alması ümumi gülünclük fonunu bir azacıq ört-basdır etdi...

Bunları nədən xatırladıq? Məsələ bundadır ki, indiyədək ABŞ və Türkiyə deyəndə dərhal NATO yada düşürdü və nə qədər ziddiyyətli durum olsa da, hər halda, bunun bir çərçivəsi vardı: bir neçə il öncə kimsə ABŞ-la Türkiyənin biri-birinə qarşı sanksiya tətbiq edəcəyini, Türkiyənin ABŞ-ı özünə qarşı iqtisadi müharibə açmaqda ittiham edəcəyini təsəvvür belə etməzdi. Əksinə, Türkiyə deyəndə ABŞ-ın və yaxud NATO-nun bölgədə ən yaxın müttəfiqi və üzvü başa düşülürdü.

Amma budur, münasibətlər ən gərgin səviyyədədir: Vaşinqton Türkiyədə çevriliş etməyə cəhd etmiş bir adamı ərazisində himayə edir, üstəlik, Türkiyədə casusluq etdiyinə görə həbs olunmuş vətəndaşı, pastor E.Bronsonu qeyd-şərtsiz azadlığa buraxmağı tələb edir!..

Biz hələ onu demirik ki, nə ABŞ, nə də ki, digər NATO ölkələri Ankaraya hava hücumundan müdafiə silahları satmadılar və Türkiyə bunu Rusiyadan almaq fikrinə düşəndə böyük bir qalmaqal yaratdılar ki, guya Ankara Moskvaya NATO-nun hərbi sisteminə giriş əldə etmək imkanı yaradır! Digər bir tərəfdən də, ABŞ-ın daim kürd yaraqlılarını silahlandırması! Düşünmürük ki, dünyanın hansısa bölgəsində nəinki iki yaxın, ümumiyyətlə, iki müttəfiq arasında bu qədər ziddiyyət və yaxud da anlaşılmazlıq olsun.

Vəziyyəti izah etmək üçün ən müxtəlif səbəblər və arqumentlər göstərilir. Məsələn, qeyd olunur ki, D.Tramp Konqresə seçkilər zamanı ABŞ yevangelistlərinin səsini itirmək istəmir. Bəzi mənbələrə görə, Trampın özünün seçkiləri zamanı yevangelistlərin (E.Bronson da bu dini icmaya aiddir) 81 faizi Trampa səs vermişdi. Bu ilin noyabr ayında isə Konqresə seçkilər olacaq - aşağı palata tamamilə yenidən formalaşacaq, 100 senatordan 35-i, eləcə də 39 qubernator təzədən seçiləcək. Ona görə də Bronsonun məsələsi respublikaçılar üçün seçki öncəsi piar məsələsidir.

Amma düşünürük ki, məsələ təkcə seçki ilə və ya mövcud siyasi konyunktura ilə bağlı deyil, burada atlantizm ideyasının böhranı da var, digər məsələlər də. Məsələn, ABŞ-ın öz müttəfiqlərinə, hətta ən yaxın müttəfiqlərinə "etibarı" ayrıca bir söhbətin mövzusu olmağa layiqdir.

Bir neçə, hətta dəfələrlə oxumuşuq ki, ABŞ nəinki Avropadakı müttəfiqlərinin, eləcə də ABŞ-ın "əllinci ştat"ı adlandırılan İsrailin belə baş nazirinin danışıqların dinləyir. Görünür, eyni münasibəti Ankaraya da şamil etmək istəyirlər.

Burada başqa bir məsələ də var və onu digər yazılarda artıq qeyd etmişik. Ağ Ev Türkiyəni zəiflətməkdə və onun regionda oynadığı rolu digər dövlətə - İsrailə həvalə etməkdə maraqlı görünür. Bununla bağlı da müxtəlif fikirlər mövcuddur. Amma bir qədər kobud və hətta yöndəmsiz səslənsə də, məşhur məsəl var: atları döngələrdə dəyişməzlər...

# Ermənistan cəbhədəki itkilərini gizlədir

## Ekspert: "Azərbaycan Silahlı Qüvvələri zaman-zaman Ermənistan əsgərlərinə lazımi dərsi verir"

**Ermənistan Respublikası Naxçıvan istiqamətində məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirməyə davam edir.**

Bu barədə məlumatı Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidməti yayıb. Nazirlikdən bildirilib ki, avqustun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikası istiqamətində düşmən tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması nəticəsində Azərbaycan ordusunun hərbi qulluqçusu İsrafilov Samit Ədalət oğlu yaralanıb. Hərbi qulluqçuya dərhal tibbi yardım göstərilib, həyati təhlükə yoxdur.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verənlərə görə məsuliyyət tam şəkildə Ermənistan hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Azərbaycan ordusunun bölmələri dövlət sərhədində əməliyyat şəraitinə tam nəzarət edir.

Onu da qeyd edək ki, Azərbaycan ordusunun Naxçıvan Əlahiddə Ümumqoşun birləşməsi bu ilin may ayında Şərur rayonu istiqamətində mövqelərini bir neçə kilometr irəli çəkərək yeni strateji mövqelər tutaraq, nəticədə 1992-ci ildən bəri düşmən nəzarətində olan Günnüt kəndini faktiki işğaldan azad edib. Habelə Günnüt kəndi ilə birlikdə cəmi 11 min hektara yaxın ərazi də ordumuzun nəzarəti altına keçib.

**"Yeni Müsavat"a danışan hərbi ekspert Üzeyir Cəfərov da bildirib ki, düşmənin bu kimi aktivlik göstərməsi may ayında baş verən hadisələrlə əlaqəlidir:** "Ona görə də hesab edirəm ki, Naxçıvan Əlahiddə Ümumqoşun ordusunun komandanlığı son dərəcə diqqətli və ehtiyatlı olmalıdır. O mənada ki, düşmən hələ də həmin ərazilərdə böyük itkiyə məruz qalmasını həzm edə bilmir. On illər boyunca nəzarət etdikləri ərazi bu gün onların nəzarətindən çıxıb və Azərbaycan silahlı qüvvələri Ermənistan ərazisinə tam nəzarət edir. Hətta hərbçilərimiz Ermənistan üçün strateji olan yola belə nəzarət edirlər. Yəni sabah ermənilərin ağılsızlığı nəticəsində hər hansı bir gərginlik yaşanacaqsa, onlar dəhşətli vəziyyətlə üzləşə bilərlər. Çünki Azərbaycan silahlı qüvvələri düşmənə heç bir halda imkan verməyəcək ki, həmin strateji yoldan istifadə etsin. Əgər Naxçıvana, ümumiyyətlə, Azərbaycana qarşı hər hansı bir hərəkət edəcəklərsə, bu, onlar üçün ağır başa gələcək. Şəhid verməyimizə gəlincə isə deyim ki, bütün cəbhə boyu, müxtəlif istiqamətlərdə və fərqli vaxtlarda düşmənin təxribatları nəticəsində əsgərlərimiz həyatlarını itiriblər. May ayından sonra bizim Ağstafadan olan çağırışçımız Adil Tatarov həmin istiqamətdə şəhid oldu. Azərbaycan Silahlı Qüvvələri bütün bunları cavabsız saxlamır. Ermənistan tərəfi məlumat yaymasa da, baş verənləri gizlətsə də, hər halda, Azərbaycan bu məsələlərdə düşmənə güzəşt etmək fikrində deyil. Naxçıvanla əlaqədar düşmənin həyata keçirdiyi təxribat yuxarıda göstərdiyimiz faktla bağlı olsa da, daha çox onlar Azərbaycanı təxribata çəkməklə, öz ərazilərində hansısa sübutu əldə əsas tutmaq istəyirlər. Bununla da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının xətti ilə gedişlər etmək istəyirlər. Xəzərin statusu ilə bağlı keçirilən görüş zamanı da Qazaxıstan prezidenti ilə Rusiya prezidenti arasında bu məsələ yenidən müzakirə olunub".




**Ekspert bildirib ki, Azərbaycan əsgərləri öz ərazilərində üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirirlər:** "Ancaq biz unutmamalıyıq ki, bu, düşməndir. Yağı düşmən də maksimum çalışır ki, bu kimi məsələlərdən faydalansın. Cəbhə bölgəsinə gətirdikləri kəskin atıcıları, o cümlədən ön xəttə, müdafiə mövqelərində olan əsgərləri də zaman-zaman həm təxribat həyata keçirirlər, həm də Azərbaycan əsgərlərinin normal fəaliyyətinə maneə yaratmaq üçün problemlər yaratmağa çalışırlar. Sözsüz ki, Azərbaycan əsgərləri də düşmənin hərəkətlərinə adekvat və ondan da bir qədər ağır formada necə lazımdırsa, elə də cavab verir. Biz bunu bəyan etməsək də hər şey göz önündədir. Bəyəm düşmən atır, əsgərimiz yaralanır, biz də buna seyrçi mövqe göstəririk? Əsla belə deyil. Azərbaycan Silahlı Qüvvələri zaman-zaman Ermənistan əsgərlərinə lazımi dərsi verir. Hansılar ki, onlar təmas xəttində narazılıq yaradıb, atəşkəs rejimini pozurlar. Həmin istiqamət qeydə alınır və Azərbaycan Silahlı Qüvvələri tərəfindən lazım olan tədbirlər görülür. Ya kəskin atıcılarımız vasitəsilə, yaxud da bir qədər ağır silahlar olan pulemyot və ya avtomatlar vasitəsilə nöqtələri susdurmaq üçün lazımi addımlar atılır. Ermənistan tərəfi isə bunu gizlətməyə çalışır. Lakin sosial media üzərindən biz mütəmadi məlumatlar alırıq ki, bu və ya digər istiqamətlərdə Ermənistan Silahlı Qüvvələrinin əsgəri yaralanıb, yaxud da həyatını itirib. Bu, təkcə Naxçıvan istiqamətinə aid deyil. Qoşunların həm Ermənistan-Azərbaycan dövlət sərhədində, həm də işğal olunmuş ərazilərdə bu cür hallar olur. O yerlərdə ki, təmas xətti keçir, Azərbaycan Silahlı Qüvvələri düşmənin hərəkətlərinin qarşısını almaq üçün lazım olan bütün üsullardan istifadə edir".

❑ Əli RAİS,
"Yeni Müsavat"

# Erməni hərbçilər qəzaya düşdü: yaralılar var

**Ermənistanın Qeqarkunik əyalətinin Çambarak şəhərində ağır yol qəzası baş verib.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, avqustun 13-ü səhər saat 07:40 radələrində Çambarak şəhərində "Mercedes" və "VAZ 2107" markalı avtomobillər toqquşub. Nəticədə hər iki avtomobilin sürücüsü ağır xəsarət alıb və onlar Qoris şəhərinin tibb mərkəzinə yerləşdirilib.

Qeyd olunur ki, yaralananların ikisi də Ermənistan ordusunun hərbçisidir.

"Mercedes" markalı avtomobilin sürücüsü 39 yaşlı Aram Arutyunyan Ermənistan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində tağım komandiri olan zabitdir. "VAZ 2107" dövlət nişanlı avtomobilin sürücüsü 39 yaşlı Ruslan Arutyunyan isə Ermənistan ordusunda müqavilə əsasında xidmət keçən hərbi qulluqçudur. Hadisə ilə bağlı cinayət işi açılıb, istintaq aparılır.

Qeyd edək ki, bu, Ermənistanda hərbçilərin və zabitlərin iştirakı ilə baş verən ilk yol qəzası deyil.



# İrəvana son şans - Bakının vaxt limitini işğalçı adekvat qiymətləndirməsə...

Heç bir "məxməri" və ya "qeyri-məxməri" inqilab Ermənistanı normal inkişaf yoluna çıxara bilməyəcək, əgər...; **erməni siyasi şərhçi:** "Paşinyanın iki xalqı barışdırıb Nobel sülh mükafatı almaq şansı var..."

**Qarabağ danışıqlarının perspektivi qeyri-müəyyən olaraq qalır. İşğalçı Ermənistanda "məxməri inqilab"dan sonra gedən proseslər, yeni rəhbərliyin münaqişənin həllinə radikal yanaşma tərzi nizamlama ətrafında mürəkkəb durumu daha da qəlizə salıb. Ancaq qeyri-müəyyənlik uzun da sürə bilməz. Çünki müharibə riski artıq heç vaxt olmadığı kimi yüksəkdir.**




Mövcud vəziyyəti Ermənistanın yeni rəhbərliyi yəqin ki, anlayır. Ötən həftə sonu Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyanın Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ ərazisinə getməsi bunun növbəti təzahürü sayıla bilər. Daha öncə isə yeni baş nazir Nikol Paşinyan ümid etdiyini bildirmişdi ki, Rusiya Qarabağda müharibənin qarşısını alacaq, yəni Azərbaycanı durduracaq.

Beləcə, rəsmi İrəvan cəzasız qalmaq üçün hələ də Moskvaya ümid eləməklə yanaşı, manevrlərə baş vurub vaxt udmağa çalışır. Motiv qismində də təxminən gələn ilin aprelinə nəzərdə tutulan növbədənkənar parlament seçkiləri görülür. İlk baxışda səbəb obyektivdir. Amma məsələ ondadır ki, Nikol Paşinyan iqtidarı seçki olsa da, olmasa da, Qarabağ məsələsində hələ ki konstruktiv yanaşma sərgiləməkdən çox uzaqdır.

Konstruktivlik üçün isə Ermənistanın istənilən rəhbəri məntiqlə Rusiya amilinə yox, Azərbaycan və Türkiyə amilinə önəm verməlidir. Sadə səbəbə: çünki Moskva Dağlıq Qarabağ konfliktinin həllində maraqlı deyil. Bunu ən azından, ötən illərin acı təcrübəsi göstərir. Ermənistan isə nizamlamada maraqlı olmalıdır, ona görə ki, özünün iqtisadiyyatını inkişaf etdirmək, əhalisinin rifahını yaxşılaşdırmaq , ölkədən kütləvi köçü azaltmaq onun problemidir, Rusiyanın və ya Azərbaycanın, Türkiyənin yox.

Bu mənada Bakının İrəvana tanıdığı mümkün vaxt limitindən, bəlkə də son şansdan erməni tərəfi sui-istifadə etməməli, bundan sırf öz hakimiyyət dayaqlarının möhkəmlənməsi naminə faydalanmamaldır. Ancaq indilikdə işğalçı ölkə rəhbərliyinin bu yöndə hansısa pozitiv məramının işartısı, əfsuslar olsun ki, müşahidə edilmir.

*****

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar prosesinin bərpası üçün müəyyən hazırlıq mərhələsi lazım gələ bilər". Bunu ötən şənbə jurnalistlərə müsahibəsində erməni baş nazir Nikol Paşinyan deyib.** "Biz artıq bəyan etmişik ki, hadisələrin istənilən inkişaf ssenarisinə, o cümlədən sülh danışıqlarının bərpasına hazırıq. Ancaq düşünürəm ki, hamı anlayır ki, danışıqlar prosesi üçün, xüsusilə də hazırkı siyasi şəraitdə müəyyən hazırlıq mərhələsi lazımdır, müəyyən zəmin yaranmalıdır", - deyə o bildirib.

"Müəyyən hazırlıq mərhələsi", "danışıqlar üçün zəmin"... Azərbaycan tərəfi belə sözləri, bəyanatları 25 ildir eşidir. Məhrumiyyətlər içində yaşayan erməni xalqının özü də yəqin ki, bunlardan bezib. Yəni artıq zamanı yetişib ki, ermənilər öz hakimiyyətindən Qarabağ məsələsində konstruktiv mövqe tələb etsinlər. Əks halda, Rusiyadan vassal asılılığı və ağır blokada rejiminin sonu gəlməyəcək, heç bir "məxməri" və ya "qeyri-məxməri" inqilab Ermənistanı xilas edə, inkişaf yoluna çıxara bilməyəcək. Necə ki, çıxara bilmir.

*****

**"Artıq Ermənistanda anlayırlar ki, Rusiya Ermənistanın inkişaf etməsində maraqlı deyil, ona çox pul xərcləmək istəmir. Rusiya Ermənistanı nökər, qul kimi saxlamaq istəyir, amma daha ermənilər bununla razılaşmır, inkişaf etmək istəyirlər. Ona görə də Ermənistanda Qarabağla bağlı da fikirlər səsləndirilir ki, Azərbaycan və Türkiyə ilə düşmənçilik onlara baha başa gəlir". "Yeni Müsavat"ın məlumatına görə, bu fikri teleqraf.com-a müsahibəsində politoloq Elxan Şahinoğlu deyib.**

**Politoloq hesab edir ki, Ermənistanda oyanış gedir və bu proses Azərbaycanın xeyrinədir.** "Lakin bununla belə, arxayınlaşmaq olmaz, Ermənistana hərbi təzyiqləri davam etdirməliyik. Prosesləri ciddi analiz etməliyik ki, sonrakı addımlar nə ola bilər. Fikir verirsinizsə, Azərbaycan prezidenti İlham Əliyev də Paşinyana ümid yeri qoyur, vaxt tanıyır ki, komandasını formalaşdırandan sonra Qarabağ məsələsinin həllinə başlasın. İlham Əliyev Paşinyana şans yaradır ki, münaqişənin həllində obyektiv olsa, Ermənistan - Azərbaycan münasibətlərində müsbət irəliləyişlər ola bilər. Əlbəttə, bu, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə mümkündür".

**Elxan Şahinoğlu haqlı olaraq düşünür ki, Ermənistan iqtisadi blokadadan çıxa bilər, bir şərtlə ki, öz işğalçılıq siyasətindən əl çəksin:** "Bununla bağlı ona ismarışlar göndərilməlidir. Əgər buna baxmayaraq, Ermənistan işğalçılıq siyasətindən geri çəkilməsə, hərbi təzyiqləri davam etdirmək lazımdır".

*****

Yəni bir növ "qamçı və kökə" siyasəti. Əslində Azərbaycanın Ermənistana daha bir qədər vaxt limiti tanıması hədədən artıq böyük güzəştdir. Çünki 25 ildən çoxdur ki, biz işğal rejiminin sona yetməsini, erməni tərəfin torpaqlarımızı azad eləməyə başlamasını gözləyirik. Bunun özü çox böyük güzəştdir, lakin sonsuzadək də sürə bilməz. Azərbaycanın yerində hər hansı başqa dövlət olsaydı, yəqin ki, işğala bunca dözüm göstərməzdi.

Bu xüsusda Ermənistanda hakimiyyət dəyişikliyindən sonra yaranan vəziyyətə rəsmi Bakının obyektiv yanaşaraq düşmən ölkənin rəhbərliyinə daha bir qədər vaxt limiti tanıması Azərbaycanın verdiyi bəlkə də sonuncu şans, fürsətdir ki, nəhayət, İrəvan reallığı düzgün qiymətləndirsin; Qarabağ məsələsində nə dərəcədə partlayış xarakterli vəziyyətin yarandığını dərk, böyük müharibə riskinin nə dərəcədə ciddi olduğunu fərq eləsin.

"Ermənistanın Qarabağ məsələsində mövqeyi qeyri-konstruktivdir və respublikanın danışıqlar prosesindən çıxarılması ilə daha da qəlizləşməkdədir. Bununla belə, Ermənistanda hakimiyyət dəyişikliyi və əlləri dirsəyə kimi Azərbaycan və erməni xalqlarının qanına batmış rəhbərliyin istefaya göndərilməsi Azərbaycanda alqışlanır".

**"Yeni Müsavat"ın məlumatına görə, bu barədə erməni siyasi şərhçi Mamikon Babayanın "Vestnik Kavkaza" nəşrindəki müəllif məqaləsində deyilir.**

**Erməni politoloq Bakının mövqeyini haqlı saydığını yazır:** "Bakı müharibənin əleyhinə çıxış edir və işğal altındakı ərazilərdə erməni silahlı qüvvələrinin mövcudluğunu müharibənin başlaması üçün yeganə arqument sayır. Həmin qüvvələrin çıxarılması iki xalq və dövlət arasında sülhə zəmanət yarada bilər. Hər halda, azərbaycanlılar və ermənilərin dinc birgə mövcudluğu azı, 10 əsrlik tarixə malikdir. Bu mənada Nikol Paşinyanın Azərbaycan və Ermənistan, həmçinin Ermənistan və Türkiyə arasında mehriban qonşuluğu bərpa eləmək və Nobel sülh mükafatına layiq görülmək üçün tarixi şansı var".

**Qalır bu şansı dəyərləndirmək...**



## Ermənistanda növbəti etiraz aksiyası

**Ermənistanın Ararat əyalətinin Artaşat şəhərində bizneslə məşğul olan şəxslər etiraz aksiyası keçiriblər. Orta və xırda sahibkarlar, mağaza və dükan sahibləri Ermənistan Vergilər Nazirliyinin nümayəndələrinin işindən narazılıq ediblər. Dünən səhər tezdən aksiyaya başlayan tacirlər bəyan ediblər ki, vergi orqanları işçilərinin özbaşınalığı və dükan sahiblərinə təzyiqi sərhəd tanımır.**

"Onlar bütün şəhəri terrora bürüyürlər. Hamını qorxudurlar. 13-14 nəfər vergi işçisi birləşib yoxlamalar aparırlar. 300 min dram məbləğində malı olan mağazalara 500-600 min dram cərimə kəsirlər. Təlimata uyğun olaraq kassa-nəzarət aparatlarını yoxlamağa gələrkən qanun pozuntusu aşkarlamayanda başlayırlar işçiləri təlimatsız formada yoxlamağa. Təki yoxlamağa və cərimə yazmağa bir bəhanə olsun", - deyə etiraz edən tacirlərdən biri bəyan edib.

Aksiyanın kütləviləşdiyini görən Ermənistanın Dövlət Gəlirləri Komitəsinin başçısı David Ananyan etirazçılarla görüşə gəlib.

YENİ MÜSAVAT
N 172 (7061) 14 avqust 2018



# Türkiyə-ABŞ gərginliyi səngimir-yeni bəyanatlar

## Politoloq: “Vaşinqtonun irəli sürdüyü şərtlər o qədər ağırdır ki, Türkiyənin buna razılaşması Amerikanın vassalı olması anlamına gələcək”

**ABŞ və Türkiyə arasında gərginlik hələ ki səngimək bilmir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan okeanın o tayından gələn təhdidlərə rəğmən ölkəsinin dirəniş göstərəcəyinə yönəlik növbəti mövqeyini ifadə edib.**

Ərdoğan ABŞ prezidenti Donald Trampın Türkiyədən satın alınan polad və alüminium məhsullarına gömrük rüsumunun 50 faiz artırılması qərarının Dünya Ticarət Təşkilatı (WTO) qaydalarına zidd olduğunu vurğulayıb. Ərdoğan ABŞ-ın polad və alüminiuma sanksiya tətbiq etməsini pisləyib: “Amerika, bax! Dünya Ticarət Təşkilatı var. Bu təşkilatın daxilində sənin özbaşınalığın ola bilməz. Biz beynəlxalq hüquqa əsasən hərəkət edəcəyik. Hüquq tanımama anlayışı Türkiyədə yoxdur. Biz ABŞ-ı hüquqa dəvət edirik. Biz NATO-da müttəfiq deyilik? Bu ortaqlığı niyə pozursunuz? Sənin adamının günahı, terror təşkilatı ilə əlaqəsi varsa, məhkəmə nə cəza versə, odur. Sən ”Xalqbank"ın baş direktor müavinini heç bir günahı olmadan həbs edəcəksən, banka sanksiya tətbiq edəcəksən, sonra? “Siz etdiniz, biz də edirik” demirik. Cinayət törədən cəzasını çəkəcək. Bu günədək Amerika ilə heç vaxt pis olmaq istəmədik. Amma əgər belə gedəcəksə, ərəblərin bir sözü var: “Men dakka dukka”. Biz də bunu edirik".

İki NATO ölkəsinin üz-üzə gəlməsi təbii ki, ciddi hadisədir. Üstəlik, söhbət dost və qardaş Türkiyədən gedir. Ankara və Vaşinqton arasında barış, anlaşma üçün yer qalıbmı, yoxsa münasibətlər “soyuq savaş”a qədər gərginləşə bilər?

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Türkiyə ilə ABŞ arasında barışın yaranması üçün qarşılıqlı addımlar atılmalıdır:** “Ancaq Donald Tramp administrasiyası addım əvəzinə, Türkiyəyə qarşı yeni-yeni ultimatumlar göndərir. Bu isə gərginliyi artırır. Vaşinqtonun irəli sürdüyü şərtlər o qədər ağırdır ki, Türkiyənin buna razılaşması Amerikanın vassal olması anlamına gələcək. Məsələn, ultimativ şəkildə deyirlər ki, Rusiyadan silah almayın, İranla ticarət yapmayın və s. Mənə elə gəlir ki, hətta bu gün Ankara rahib Endryü Bronsonu azad edib Amerikaya göndərsə belə, Vaşinqton Türkiyəni cəzalandırmaq üçün başqa bəhanələr tapacaq”.

> **Ankara Vaşinqtonun sərt ritorikasını qəbul etmir və geri çəkilmək niyyətində deyil; prezident Ərdoğandan qəti mövqe; politoloq: “Vaşinqtonun irəli sürdüyü şərtlər o qədər ağırdır ki, Türkiyənin buna razılaşması Amerikanın vassal olması anlamına gələcək”**

**Siyasi təhlilçi bildirdi ki, Türkiyənin regionda artan rolu, müstəqil xarici siyasəti, qonşu Rusiya və İranla Suriyada ortaq fəaliyyəti Amerikanın xoşuna gəlmir:** “Məgər Türkiyənin başında Ərdoğan deyil, Kamal Kılıçdaroğlu və ya Məhərrəm İncə olsaydı, onlar Rusiya və İranla əməkdaşlıqdan imtinamı edəcəklər? Türkiyə İrandan qaz alır, Rusiyadan ildə 6-7 milyon nəfər Türkiyədə dincəlir, atom elektrik stansiyasının tikintisi davam edir. Bütün bu imkanlardan başqa prezident imtina edə bilərmi?”

**Ancaq E.Şahinoğlu əmindir ki, qardaş Türkiyə bu çətinliyi də adlayacaq, çünki başqa alternativi yoxdur:** “Bu arada, Azərbaycanda bəzi fikirlər yayılır ki, Azərbaycan Türkiyədəki sərmayəsini geri çəkməlidir. İqtisadiyyat bir yana, Azərbaycanın Türkiyədən sərmayəsini geri çəkmək təklifinin siyasi riskləri böyükdür. Dövlət Neft Şirkəti Türkiyədəki neft və kimya sənayesinə milyardla dollar yatırım qoyub, tək elə Star zavodunun inşasına 6 milyard dollardan çox yatırım qoyulub. Zavod oktyabr ayında işə düşəcək və ilbəil Türkiyəyə və Azərbaycana gəlir gətirəcək. İndi bu yatırımdan necə imtina etmək olar? Fərz edək ki, imtina etdik, Türkiyə bu addımımıza seyrçimi qalacaq? Onsuz da Azərbaycan-Türkiyə münasibətlərini pozmaq istəyənlər pusqudadırlar, bu ən çox da işğalçı Ermənistanın işinə yarayacaq. Soyuqqanlı olmalıyıq. Bəli, lirə sürətlə dəyərdən düşür və bunda Amerikanın Türkiyəyə qarşı sanksiyalarının rolu var. Ancaq Türkiyə strateji müttəfiqimizdir, Amerikanın sanksiyaları qarşısında qazanc gətirəcək yatırımlardan imtina etməməliyik. Onda belə çıxır ki, nə vaxtsa Azərbaycanda da manatla bağlı təhlükə yaransa Türkiyə də Azərbaycandakı yatırımlarını geri çəkməlidir? Türkiyə neçə il əvvəl manat devalvasiyaya uğrayanda bunu etmədisə, yenə etməz. Belə isə biz niyə Türkiyədəki lirənin enməsi və Amerikanın Türkiyə əleyhinə siyasəti qarşısında təslim olmalıyıq? Dost və qardaş dar gündə tanınar. Türkiyə dar günümüzdə hər zaman yanımızda olubsa, biz də qardaşımızdan dəstəyimizi əsirgəməməliyik”.

**Bu arada Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada xarici ölkə səfirləri ilə görüş keçirib. Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, nazir Ankaranın Vaşinqtonla münasibətləri bərpa etmək istədiyini diqqətə çatdırıb.** “Son zamanlar ABŞ-la münasibətlərimiz arzuolunmaz nöqtəyə çatıb. Onlar bütün sübutları göndərməyimizə baxmayaraq, FETÖ ilə bağlı heç bir addım atmadı. Münasibətlərin yaxşı olacağını gözləyirik. Təhdid və sanksiyalarla Türkiyədən heç nəyə nail ola bilməzsiniz. Biz barışıq tərəfdarıyıq, amma təzyiq olmasın. Danışıqlar masasına oturmaq və bir-birinə hörmət göstərmək lazımdır”.

❑ **E.PAŞASOY,**
**“Yeni Müsavat”**

# Məşhur rusiyalı jurnalistin qətlində Berezovski “izi” - köhnə-yeni iddia

## Londondakı evində ölü tapılan oliqarx telejurnalisti niyə öldürtdürmək istəyib?



**Xəbər verdiyimiz kimi, ORT-nin ilk baş direktoru Vladislav Listyevin “Vzglyad” proqramı üzrə tərəfdaşı Dmitri Zaxarov həmkarının qətlinin sifarişçisinin mərhum oliqarx Boris Berezovski olduğunu deyib. “Yeni Müsavat”ın məlumatına görə, o, bu barədə MixTV telekanalına müsahibəsində bildirib.**

Zaxarov Listyevin öldürülməsini ORT telekanalında reklam yerləşdirilməsi monopoliyası ilə əlaqələndirib. “Kim ki, Vladın arxasında dururdu, qərara gəlib ki, ”1-ci kanal" kənar təşkilatların reklamlarının yerləşdirilməsinə moratorium tətbiq edir və bundan sonra bu işlə bilavasitə “1-ci kanal” məşğul olacaq. Yəni dərhal məntiqi baxımdan və asanca belə bir nəticə çıxır ki, kim bundan daha çox zərər görürdü, qətli də o sifariş edib" - “Vzqlyad”ın keçmiş aparıcısı deyib.

“Hazırda həyatda olmayan, hamımıza yaxşı tanış olan adam buna görə milyardın dörddə biri həcmdə vəsaitdən məhrum olmuşdu. O adam sonradan Londonda ya asılmış, ya da özünü asmış halda tapıldı. Yəni bu, o qədər açıq-aşkar bir məsələydi ki, orada təhqiqat aparmalıq bir şey yox idi”, - deyə Zaxarov qeyd edib.

“Siz Boris Berezovskini yada saldınız” - müsahibə götürən jurnalist Zaxarovun çəkmədiyi adı səsləndirib.

“Yeni Müsavat” xatırladır ki, jurnalistin 1995-ci ildə baş verən qətli ilə bağlı versiyalar hər zaman olub. 2015-ci ildə oğru dünyasının məşhur simalarından olan “Fandora” ləqəbli Serqey Yakovlev xəstəxanada öləndə bildirildi ki, “qanuni oğru” sonuncu dəfə Sankt- Peterburqun keçmiş qubernatoru Mixail Maneviçi və TV aparıcısı Vladislav Listyevin xüsusi amansızlıqla qətlində iştirak etdiyi üçün həbs edilib.

**Rusiyada böyük səs-küy salan bu qətlin törədilməsində dövlət işçilərinin də köməyindən istifadə olunub. Bunun üçün Rusiya Baş Kəşfiyyat İdarəsinin əməkdaşı olan Zaurun köməyindən istifadə edilib. Qətlin hekayəsi aşağıdakı kimi olub:**

1995-ci il martın 1- də “Şirxan” ləqəbli bir nəfər S.Çelişevə yaxınlaşır və qeyd edir ki, o, xüsusi xidmət orqanının əməkdaşı olan Zaurun adamıdır və böyük pul müqabilində işbirliyi qurmağı təklif edir. Çelişev bu təklifi qəbul edir və onlar birlikdə jurnalist Listyevin yaşadığı evin yaxınlığına gəlirlər. Bu zaman maşını Çelişev idarə edir. Maşını evin yaxınlığında saxlayır və bu vaxt onunla birlikdə gələn digər 3 nəfər harasa gedirlər. Təxminən 3 saatdan sonra onlar geri qayıdır. Bu zaman Çelişev eşidir ki, həmin şəxslərin birinin cibində olan rabitə qurğusundan səs gəlir. Çelişev başa düşür ki, onlar jurnalist Listyevanı öldürmək üçün gəliblər. Onlar jurnalisti xüsusi amansızlıqla qətlə yetirirlər.



**Bu hadisə ilə bağlı müstəntiqin sualını cavablandırarkən məşhur avtoritet Çelişev bunları deyir:** “Mənə hadisə yerinə gəlib çatana kimi heç bir söz deməmişdilər. Əgər mən bilsəydim ki, biz jurnalist Listyevi öldürməyə gedirik, o zaman bundan imtina edərdim. Ona görə ki, mən və ailəmin bütün üzvləri o jurnalisti çox sevirdik. Mən ömrümdə ilk dəfə bu qətl zamanı peşman oldum”.

“Vid” telekompaniyasının rəhbəri, tanınmış jurnalist Vladislav Listyevin və gürcü əsilli kriminal avtoritet “Otarik” ləqəbli Otari Kvantrişvilinin qətllərinə görə killerlər Avropa və ABŞ-da belə cinayətlərə görə 300 min dollara yaxın qonorar alıblar.

“Yeni Müsavat” bunu da xatırladır ki, ölümündən 15 il sonra, yəni 2010-cu ilin oktyabrında tanınmış telejurnalist Vladislav Listevin qətlinin sifarişçisi və təşkilatçısının kim olması barədə Rusiya mətbuatı yazıb. Daha dəqiq desək, “Fontanka.ru” internet qəzeti qətlin sifarişçisinin məşhur oliqarx Boris Berezovski olması haqda xəbər yaymışdı. Qəzetin yazdığına görə, bu 15 il ərzində istintaq xeyli sayda versiya üzərində işləyib. Amma onların heç biri sonda təsdiq olunmayıb. Məsələyə Qalina Stravoytovanın qətlində ittiham olunaraq həbs edilmiş Yuri Kolçin aydınlıq gətirib. Qəzet yazmışdı ki, sifarişçi və killeri zəncirvari şəkildə əlaqəli olan şəxslər bir-birinə bağlayıb. Kolçinin sözlərinə görə, o, Peterburqda məşhur cinayətkar avtoritet olan Konstantin Yakovlevin (“Kostya Moqila”) Eduard Konimoto adlı bir şəxsə ORT-nin baş direktorunu öldürmək tapşırığı verdiyinin şahidi olub.

Killer də bununla razılaşıb. Qətldən sonra avtoritet Moskvaya gedərək Berezovski ilə görüşüb. Bu söhbətdən sonra Kolçin başa düşüb ki, qalmaqallı qətlin sifarişçisi oliqarx olub. Bununla bağlı kimisə məsuliyyətə cəlb etmək imkanları da itirilib. Kostya Moqila və Kanimoto artıq həyatda yoxdurlar. Berezovski isə İngiltərədə siyasi sığınacaq alıb. Bu ilin aprelindən Listyevin ölümü ilə bağlı cinayət işinin təhqiqi dayandırılıb.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

**Müğənni Fədayə Laçın və həbs edilən digər şəxslərin məhkəməsi davam etdirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində müğənni Fədayə Laçın, Penitensiar Xidmətin Konvoy taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Bəhruz Abdullayev, Penitensiar Xidmətin üç əməkdaşı - qarovul rəisi Ceyhun Səmədov, qarovul rəisinin müavini Fuad Hacıyev və qarovul rəisinin digər müavini Tural Poladxanov, Əli Ağami, Günay Atakişiyeva, taksi sürücüsü Məhəmməd Hacıyevlə yanaşı, Aqil Nəcəfov, Anar Əsgərov, İsrəfil Soltanov, Şahmar Bəyəlizadə və Tərlan Zeynalovun cinayət işi üzrə məhkəmə iclası keçirilib.**




# Fədayə Laçın məhkəmədə bütün sirlərini açdı

## **Həbsdəki müğənni:** "Axırıncı dəfə Etibarın yanına gedəndə məndən açar istədi"

**Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən məhkəmə iclasında həbs edilən müğənni Fədayə Laçın ifadə verib. F.Laçın təqsirləndirilən şəxslərdən yalnız Aqil Nəcəfovu tanıdığını bildirib.**

**İfadəsində "Qoca" ləqəbli Etibar Məmmədovla tanışlığından danışan F.Laçın bunları deyib:**

"Etibarın qardaşının toyuna dəvət almışdım. Sonra onun ad günündə iştirak etdim və orada tanış oldum. Etibar şair idi. Mənə yazdığı şeirləri, qəzəlləri göndərirdi. Sonradan onunla münasibətimiz yarandı". F.Laçın Etibar Məmmədov həbs edildikdən sonra onunla görüşə getdiyini də deyib:



"Həbsxanaya yanına gedib-gəlirdim. Onunla şeirləri, mahnıları müzakirə edirdik. Axırıncı dəfə Etibarın yanına gedəndə məndən açar istədi. Açarın nəyə lazım olduğunu soruşanda dedi ki, qəfəs var, onu açacaq. Söhbət zamanı ona bacımın "Azərbaycan Dəmir Yolları" QSC-də işlədiyini demişdim. Buna görə də məndən açar istədi. Heç bilməzdim ki, Etibar qatardan qaçar. Əvvəl açara görə bir neçə gün telefonumu söndürdüm. Sonra Aqil açara görə mənə zəng elədi. Mən də bacıma zəng etdim. Açarı başqa adamdan Aqil götürdü. Sonra da məlum hadisə baş verdi".

**"Qoca" Lənkərana etap edilən zaman onunla görüşdüyünü söyləyən F.Laçın qatarda mahnıya qulaq asdıqlarını qeyd edib:** "Etibar mənə zəng elədi. Mən də həmin gün Lənkəranda toyda idim. Sonra onunla görüşdüm. Sonuncu dəfə Etibarla Bakıda vağzalda görüşdüm. Bizim görüşümüzə qaravul rəisi Ceyhun Səmədov icazə verdi. Çantamı aldı, üstümə baxış keçirdi. Qatarda telefonumda olan mahnılara qulaq asdı. Etibar Ceyhundan icazə istəmişdi. Etibarın qaçmağına inanmırdım".

Suallara cavab verən F.Laçın "Qoca"nın cinayətkar olduğunu onu tanıyandan sonra bildiyini deyib.

**F.Laçın "Qoca"ya verilən açarı görmədiyini, onun qaçdığını mətbuatdan öyrəndiyini deyib:** "Etibar qaçandan sonra mənimlə əlaqə saxlamadı. Mən Etibarla qatarda görüşəndə nə Ceyhun Səmədova, nə də digərlərinə pul vermişəm. Çünki mənə hörmət edirdilər. Hətta yol polisləri məni yolda saxlayanda belə, hörmət edib buraxıblar. Məni onlar bir müğənni kimi yaxşı tanıyırdılar. Etibarla Bakıda qatarda görüşümüzdə Ceyhun Səmədovdan xəbərsiz onunla şəkil çəkdirdim. Hətta orada Əli Ağaminin də Etibarla şəklini çəkdim. Bakı İstintaq Təcridxanasında Etibarla 3 dəfə görüşmüşəm. Lənkəranda isə icazə ilə onunla görüşdüm. Bizə şəraiti polislər yaratmışdı, çay da verdilər. Bir neçə dəqiqə Etibarla söhbət etmişəm".

**Hakim qeyd edib ki, zənglərin çoxu gecə saatlarında baş verib:** "Ən uzun danışıq isə 4030 saniyə (67 dəqiqə) olub. Həmin vaxt Fədayə Laçın Etibara zəng edib".

**Bunu F.Laçın özü də təsdiqləyib. O deyib ki, Etibar ona, o da Etibara zəng edirdi. F.Laçın zəng etməsinin səbəbini belə izah edib:** "Çünki gecələr yata bilmirdim, onunla danışırdım".

Məlum olub ki, F.Laçın "Qoca" həbsdə olan zaman onunla 32 dəfə telefonla danışıb.

"Qoca"a qaçmaq üçün mindiyi taksinin sürücüsü də məhkəmədə dindirilib.

**Həbs edilən Məhəmməd Hacıyev həmin ərəfədə Sumqayıtda taksi fəaliyyəti ilə məşğul olduğunu söyləyib. "Qoca"nı digər həbs edilən Günay Atakişiyeva vasitəsilə tanıdığını deyən Məhəmməd Hacıyev hədələndiyi üçün ona kömək etdiyini deyib:**

"Günay xanım zəng edib Etibarı aparmaq lazım olduğunu bildirdi. Yeni çatmışdım ki, qapı döyüldü, Etibar içəri daxil oldu. Əvvəl qapıda Etibarla söhbət etdik, dedi ki, artıq-əskik olmasın, hara lazımdır, ora da sür. Mən onunla pul söhbəti aparmamışam. Əvvəl Sumqayıtdan Qaradağa apardım. Postda geri qayıtdıq, Günay nömrə aldı. Sonra getdik və Ağstafada həbs edildik. Etibar məni təhdid etdi. Mən də qorxduğum üçün onları apardım".

**Digər təqsirləndirilən Tərlan Zeynalov ifadəsində deyib ki, "Qoca" qaçandan sonra onunla görüşüb:** "Görüşümüz ayaqüstü olub. 2000 manat pul var idi, onu gətirib Etibara verdim. Pul mənim dayımoğlunda idi. Pulu da "Qoca"nın yoldaşı göndərmişdi. Əvvəl maşınla gəlib, məni götürüb Hökməliyə getdik. Maşında bildim ki, Etibar qaçıb. Hökməlidə onun dustaq yoldaşının evinə getdik. Axşam tərəfi pulu gətirib verib, oradan getdim".

**Təqsirləndirilən Şahmar Bəyəlizadə ifadə verib. O, dostu İlqarın ona zəng edib, qonağı olduğunu bildirdiyini söyləyib:** "Mən də evdə tək idim. Bunlar gəldi, mağazaya getdim. Qayıdanda dedilər ki, Fədayə Laçın həbs edilib. Yenidən mağazaya gedib, qayıdanda Etibargil getmişdi. Sonra onlarla birgə gedəndə polis bizi mühasirəyə aldı. Həmin zaman Anar yaralanmışdı. Yolda Etibar baqajdan çıxdı, onda silah var idi. Etibar polisə güllə atdı. Biz Anarla maşının saxlanmasını istədik. Etibar "saxlasan vuracam" dedi. Polis bizi tutanda Etibar yaralı idi. O, bıçağı çıxardıb özünü öldürmək istəyirdi. Lakin sonrasını görmədim".

Hakim bildirib ki, Ş.Bəyəlizadənin ifadəsində ziddiyyət var. Onun istintaqa verdiyi ifadə elan olunub. Bildirib ki, polislə atışmadan sonra "Qoca" bıçaq çıxarıb "ölsəm də sağ ələ keçməyəcəm" deyib qarnına bir neçə bıçaq zərbəsi endirib".

**Təqsirləndirilən Anar Əsgərov istintaqa verdiyi ifadəsini təsdiq edib, taksi sürücüsü olduğunu söyləyib:** "Gecə idi, qəsəbədən tanıdığım İlqar rayona getmək lazım olduğunu bildirdi. Maşında gedən zaman baqajdan bir nəfər çıxdı. Sonra bildim ki, bu "Qoca"dır. Onu heç tanımırdım. Yolda polis bizi mühasirəyə aldı. Hadisə zamanı yaralanmışam. Xəstəxanada yaddaşım pozulub. Çox şey yadımda deyil".

Bildirək ki, iş üzrə 7 nəfər - Müzəffər Məmmədov, Emil Səfərov, Ramil Səlimov, Hətəm Əliyev, Vüsal Abbasov, Rövşən Camalov və Rəşad Məmmədov zərərçəkmiş var.

Səs-küylü hadisə ötən il oktyabrın 23-də baş verib. Bakı-Astara-Bakı planlı dəmir yolu qarovulu ilə xüsusi təyinatlı vaqonda Bakı şəhərinə etap olunan xüsusilə ağır cinayətlərdə təqsirləndirilməklə həbs edilmiş "Qoca" ləqəbli Etibar Ələkbər oğlu Məmmədov və Əli Rasim oğlu Ağami Biləcəri qəsəbəsi ərazisində müşayiət altından qaçıblar.

Mühafizə altından qaçan Əli Ağami həbs olunub, kriminal aləmdə "Qoca" ləqəbi ilə tanınan Etibar Məmmədov isə hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyat zamanı öldürülüb. "Qoca" ilə sevgi münasibəti olan müğənni Fədayə Laçın da ona kömək etdiyi üçün həbs edilib. Əli Ağami və "Qoca" adam öldürməyə görə həbs edilmişdilər. Əli Ağami törətdiyi əmələ görə 19 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**



# Bakıda və Şabrandakı amansız qətllərin təfərrüatı

**Avqustun 10-da Xəzər rayonunun Buzovna qəsəbəsi ərazisində naməlum şəxs qəsəbə sakini Səkinə Hümbətovanı bıçaqla qətlə yetirib. Faktla əlaqədar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.**

Polis və prokurorluq orqanları əməkdaşlarının peşəkarlıqla həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində qətlin Ağsu rayon sakini, əvvəllər məhkum olunmuş Zəfər Mərdanov tərəfindən törədilməsi, onun Bakı şəhər sakini Zülfiyyə Şiriyeva ilə birgə sonuncuya məxsus "Mitsubishi" markalı avtomobildə hadisə yerinə gəlmələri və sonradan həmin nəqliyyat vasitəsini Şağan qəsəbəsi ərazisində atıb getmələri də müəyyən edilib.

Həyata keçirilmiş tədbirlərlə ağır cinayət hadisəsini törətməkdə şübhəli bilinən Zəfər Mərdanov tutularaq istintaqa cəlb olunub.

Görülən tədbirlərlə Z.Şiriyeva da saxlanılıb, onun əməlləri CM-in 307-ci (cinayət barəsində xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə) maddəsinə tövsif edilib.

Şabran rayonunda baş verən qətlin də təfərrüatı məlum olub.

"Report"un şimal bürosunun məlumatına görə, 1980-ci il təvəllüdlü Vüsal Hacıyev həmyerlisi, 1982-ci il təvəllüdlü Ruslan Hacıyevi qısqanclıq zəminində qətlə yetirib. Belə ki, R.Hacıyev evinə gələn zaman V.Hacıyevi həyətində görüb. Bu zaman V.Hacıyev həmyerlisinin həyat yoldaşı ilə şəxsi münasibəti olduğunu düşünərək ona çoxsaylı bıçaq xəsarətləri yetirib. R.Hacıyev hadisə yerindəcə ölüb.

V.Hacıyev polis tərəfindən saxlanılıb.



# Həftəsonunun ağır yol qəzası statistikası- 5 ölü

**Ötən iki gün ərzində daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən "Report"a verilən məlumata görə, avqustun 11-dən 13-dək ölkədə 195 cinayət faktı qeydə alınıb, onların da 33-ü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalan 15 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 19 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 6 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Ölkənin avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 6 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 14, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 42 nəfər saxlanılıb

## **Həbsdəki müğənni:** “Axırıncı dəfə Etibarın yanına gedəndə məndən açar istədi”



# "Mənim Bakcellim": mobil nömrənizin balansını smartfondan idarə edin!

## "Bakcell"in yeni istifadəyə verdiyi özünəxidmət tətbiqetməsi sayəsində nömrə ilə bağlı əməliyyatlar etmək üçün xidmət mərkəzinə getməyə və ya məlumat mərkəzinə zəng etməyə ehtiyac qalmadı

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti ölkənin telekommunikasiya bazarında ilk dəfə olaraq ən innovativ və unikal müştəri xidməti alətini - "Mənim Bakcellim" applikasiyasını təqdim edir.**

**Abunəçilərini rahat, şəffaf və əlverişli müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell virtual müştəri xidməti tətbiqetməsini onların ixtiyarına verir.**

**"Bakcell ölkənin telekommunikasiya bazarına ən son texnologiyaların, məhsul və xidmətlərin gətirilməsi baxımından həmişə yenilikçi olub. Azərbaycanın telekommunikasiya bazarında ən rahat və qabaqcıl müştəri xidməti alətinin məhz "ilk"lərə imza atan "Bakcell" tərəfindən yaradılması heç də təəccüb doğurmur. Tam əminliklə deyə bilərəm ki, təqdim etdiyimiz yeni "Mənim Bakcellim" tətbiqetməsi mobil rabitə sahəsindəki müştəri xidmətlərində rahatlıq, şəffaflıq və innovasiyadan ibarət tam yeni dövrün başlanğıcı olacaq", deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**"Mənim Bakcellim"dən istifadə edən abunəçilər öz nömrələrinin hesabı ilə bütün lazımı əməliyyatları həyata keçirməklə yanaşı balans, aktiv bonuslar, istifadə etdikləri xidmət və ya məhsulun qüvvədən düşmə tarixi, balansda qalan meqabaytlar və nömrə barədə digər məlumatları müştəri xidməti mərkəzinə getmədən, növbədə gözləmədən və hətta məlumat mərkəzinə zəng vurmadan əldə edirlər.**

**Bu tətbiqetməni yükləyən "Bakcell" abunəçiləri çox rahat şəkildə aşağıda qeyd olunanları edə bilərlər:**

**Xidmətləri, internet və rouminq paketlərini aktiv və ya deaktiv etmək;**

**İstifadə olunan internet paketlərinin qüvvədən düşmə tarixini və balansını öyrənmək;**

**Tariflər və bütün digər təkliflər barədə məlumat almaq və onlara qoşulmaq.**

**Bundan əlavə, "Mənim Bakcellim" istifadəçiləri nömrələrinin balansı ilə bağlı maksimum şəffaf informasiyaya malik olacaqlar. Belə ki, abunəçilər zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti, abunəliklər, tutulmuş məbləğlər və əlavə xidmətlərdən istifadə daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət edə biləcəklər.**

**"Azərbaycanın ən müştəri yönümlü və innovativ telekommunikasiya xidmətləri təchizatçısı olan Bakcell öz abunəçilərini rəqəmsal müştəri təcrübəsi ilə yanaşı ən yeni məhsul və xidmətlərlə təmin edir. Şirkətimiz bunun üçün zəruri olan ən üstün və yüksək keyfiyyətli mobil rabitə şəbəkəsi qurmağa nail olub. Abunəçilərimizin arzu, təklif və ehtiyaclarını nəzərə alaraq, mobil xidmətlərdən istifadə zamanı biz onları maksimum dərəcədə rahatlıq və şəffaflıqla təmin edirik. Yeni "Mənim Bakcellim" mobil tətbiqetməsi sayəsində bizim abunəçilərimiz müştəri xidmətinə getmək və ya məlumat mərkəzinə zəng etmək üçün vaxt itirməyəcəklər. Onlar sadəcə bu proqramı yükləməklə smartfon, planşet və ya kompüter vasitəsilə yüksək keyfiyyətli müştəri təcrübəsindən yararlanırlar", deyə Bakcell şirkətinin baş marketinq direktoru Todor Dimitrovski bildirib.**

**"Mənim Bakcellim" mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün "Google Play" və "Appstore" portallarından yükləmək olar. Qeyd edək ki, qeydiyyatdan keçəndən sonra abunəçilər kompüter və planşet kimi cihazlarda "Mənim Bakcellim" proqramının "desktop" versiyasından yararlana bilərlər. Daha ətraflı məlumat və proqramı yükləmək üçün linklər https://www.bakcell.com/az/my-bakcell səhifəsində yerləşdirilib.**

**"Böyük qürur hissi ilə deyə bilərəm ki, ölkənin bütün telekommunikasiya bazarı üçün unikal hesab edilən bu fürsəti ilk dəfə Bakcell təqdim edir. Hazırda bu misilsiz məhsulumuza böyük tələbat müşahidə olunur və bu xidmətdən istifadə edən "Bakcell" abunəçilərinin bu imkandan olduqca razı qalması bizi məmnun edir", deyə T. Dimitrovski əlavə edib.**

**"Mənim Bakcellim" proqramından istifadə üzrə demo videosunu izləmək üçün aşağıdakı linkdən istifadə edin: https://www.youtube.com/watch?v=1aTUxAvyFSI**

**Avqustun 9-dan başlayaraq şimal-qərb rayonlarına yağan güclü leysan yağışları nəticəsində yaranan daşqınlar təsərrüfatlara, o cümlədən şəhər təsərrüfatına, əkin sahələrinə, infrastruktura ciddi ziyan vurub. Hazırda yağışlar səngiyib, Zaqatala və Balakən rayonlarından keçən çaylarda suyun səviyyəsi enib. Leysan və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı iş aparılır və rayon təsərrüfatına dəyən ziyan hesablanır. Sinoptiklər isə qeyri-sabit hava şəraitinin daha bir neçə gün davam edəcəyini proqnozlaşdırır və yeni daşqınlar, leysan istisna deyil.**

# Yağışlar iki rayona ciddi ziyan vurub

## Hava proqnozu isə yaxın iki gündə də yağıntılar olacağını deyir

Zaqatala RİH başçısının birinci müavini, rayon Fövqəladə Hallar Komissiyasının sədri Tofiq Əhmədovuna bildirdiyinə görə, ən çox ziyan şəhər təsərrüfatına dəyib, küçələrin asfalt örtüyü sıradan çıxıb, tütün sahələrini sel suları basıb və lil altında qalıb.

"Hazırda daşqın olan çaylarda suyun səviyyəsi enib. Fəsadların aradan qaldırılması ilə bağlı işlər gedir. Nə qədər ziyan dəyməsi ilə bağlı hesablamaları yəqin ki, bu gün yekunlaşdıracağıq. Ən çox ziyan şəhər təsərrüfatına dəyib. Rayon mərkəzində 4-5 küçədə, yeni massivdə isə demək olar ki, bütün küçələrdə daşqınlar asfalt örtüyünü sıradan çıxarıb. Evlərə, həyətlərə, kəndlərdəki pay torpaqlarına, əkin sahələrinə, fındıq bağlarına, işıq, qaz, meşə təsərrüfatına ziyan dəyib. Amma bağların hamısından su çəkilib" - T.Əhmədov deyib.

**İcra hakimiyyəti başçısının müavini bildirir ki, leysan fındıq istehsalına təsir etməsə də, tütün istehsalını azaldacaq:** "Leysan fındıq ağaclarını yuyub aparmayıb. Amma digər əkin sahələrinə, o cümlədən tütün təsərrüfatlarına leysan yağışları təsir edəcək. Çünki onları su, lil basıb. Tütün bitkisinin istehsalı bir qədər azalacaq".

İcra hakimiyyəti rəsmisinin sözlərinə görə, rayona həddindən artıq çox yağıntı düşüb. Nəticədə rayonda olan 7 çayın hamısında eyni vaxtda daşqınlar əmələ gəlib. Gecə saat 12-dən başlayan yağış ertəsi gün günorta saat 12-yə qədər aramsız yağıb, ona görə də fəsadlar çox olub. Hazırda çay yataqlarında işlər gedir.

Balakən RİH başçısının müavini Mehparə Nuriyeva isə virtualaz.org-a leysan yağışları nəticəsində rayon təsərrüfatına 750 min manatlıq ziyan dəydiyini bildirib.

"Katex və İtitala kəndlərində bir çox həyətləri, obyektləri su basıb. Yağış ən çox İtitala kəndinə ziyan vurub. İlkin hesablamalara görə, Balakən rayonunda təsərrüfata 750 min manat civarında ziyan dəyib. Xırdabuynuzlu mal-qara, ev quşları məhv olub. Əkin sahələri, fərdi təsərrüfatlar, bir də inzibati binalar, məsələn, məktəblərin həyəti, uşaq bağçalarının binası ziyan çəkib. Katex çayı üzərində körpü zədələnib".

Xatırladaq ki, sel suları nəticəsində Zaqatalada Zilban çayı üzərindəki Zilban və Car kəndlərini birləşdirən, eləcə də Tala çayı üzərindəki Meşleş və Yuxarı Tala kəndlərini birləşdirən körpülərin bəndlərini və çiyin hissələrini su yuyub, körpülərdə hərəkət dayanmışdı. Təbii fəlakət nəticəsində rayonun Bəhmətli, Lahıc, Höytala, Vöhtala, Mamrux, Çobankol, Zəyəm, Yuxarı Tala, Aşağı Tala və digər yaşayış məntəqələri sel sularının altında qalmışdı.



Güclü leysan yağışları nəticəsində Balakən rayonu ərazisindən axan Katex və Balakən çaylarında daşqınlar müşahidə olunurdu. Leysan və daşqınlar Katex, Püştətala, Kortala və İtitala kəndlərində vətəndaşlara məxsus təsərrüfatlara, qarğıdalı, tütün sahələrinə ciddi ziyan vurub.

Bu rayonlarda yol infrastrukturuna dəyən ziyanla bağlı məlumat almaq istəsək də, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə əlaqə saxlamaq mümkün olmadı.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə Azərbaycanda müşahidə olunan qeyri-sabit hava şəraitinin avqust ayının 16-dək davam edəcəyi ilə bağlı məlumat yayıb. Rayonlarda havanın bir qədər küləkli keçəcəyi, bəzi yerlərdə səhər və axşam saatlarında yağış yağacağı gözlənilir.

# Bakının məşhur restoranında və Mingəçevirdə kütləvi zəhərlənmə



**Mingəçevir şəhərində nişan mərasimində gəlin və daha 10 nəfər zəhərlənib. "Report"un Şirvan bürosunun məlumatına görə, avqustun 12-də şəhərin Günəşli yaşayış massivində Araz Aşurovun həyətində qızı Xumarənin nişan mərasimi keçirilib və tədbirdə 60 nəfər iştirak edib.**

Qonaqlara plov, dolma, dovğa təamları və müxtəlif salatlar təklif olunub. Müəyyən müddət sonra məclis iştirakçılarının halı pisləşib. Müxtəlif nəqliyyat vasitələri, o cümlədən təcili tibbi yardım maşınları ilə durumu ağır olan mərasim iştirakçıları xəstəxanaya çatdırılıb. Eyni zamanda gəlin Xumarə Aşurova da mənşəyi bəlli olmayan qidadan mədə-bağırsaq pozğunluğu keçirərək xəstəxanaya yerləşdirilib. Bundan başqa, 2001-ci il təvəllüdlü Rəna Qəzənfər qızı Aşurova sonradan xəstəxanaya aparılıb. Eyni zamanda Ağdaş rayonundan - oğlan evini təmsil edən üç qonaq evə qayıdarkən oxşar problemlə üzləşib və rayonda ev şəraitində müalicə olunublar.

Artıq xəstəxana şəraitində müalicə alan xəstələrdən 7-si mərhələli şəkildə evə buraxılıb. Yalnız 5 yaşlı Şəfa Mirzəliyevanın müalicəsi hələ də davam edir. Ağdaşdan olan digər üç zərərçəkənin də vəziyyətinin normallaşdığı bildirilir.

Qeyd edək ki, hadisədən sonra zərərçəkən şəxslərdən nümunələr götürülərək Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Mingəçevir şəhər laboratoriyasına təqdim olunub.

Avqustun 11-də Bakı şəhəri, Nərimanov rayonu, Həsən Əliyev prospekti 82 ünvanında yerləşən "Tonqal" restoranında kütləvi zəhərlənmə olub. Baş verən kütləvi zəhərlənmə hadisəsi ilə bağlı daxil olan məlumat əsasında Qida Təhlükəsizliyi Agentliyində dərhal operativ işçi qrupu yaradılıb, hadisənin baş verdiyi restoranda, zəhərlənən şəxslərin yerləşdirildiyi Klinik Tibbi Mərkəzdə və 2 saylı Uşaq Kliniki Xəstəxanasında qida təhlükəsizliyi araşdırmalarına başlanılıb.

İlkin məlumata əsasən, axşam saat 20:00 radələrində "Tonqal" restoranında iki ayrı masada qidalanan müxtəlif ailə üzvlərində bir neçə saatdan sonra zəhərlənmə əlamətləri baş verib. Hadisə nəticəsində 3-ü azyaşlı olmaqla, 13 nəfər zəhərlənib. Mütəxəssislər tərəfindən xəstələrdən nümunələr götürülüb və aidiyyəti üzrə laboratoriyaya göndərilib.

İlkin araşdırmalara görə, zəhərlənməyə səbəb baytarlıq-sanitariya nəzarətindən keçirilməyən ət və ət məhsullarından hazırlanan qidalar olub. Bundan əlavə, hadisənin baş verdiyi "Tonqal" restoranında müvafiq epidemioloji araşdırmalar aparılıb, bir sıra ciddi qida təhlükəsizliyi qaydalarının pozulduğu müəyyən olunub və faktla bağlı protokol tərtib edilib.

Qeyd edək ki, zəhərlənən 13 nəfərdən 11-i aparılan müayinə və müalicələrdən sonra evə buraxılan, 2 nəfər azyaşlının müalicəsi isə 2 saylı Uşaq Kliniki Xəstəxanasında davam etdirilir. Hazırda onların vəziyyəti qənaətbəxşdir.

❑ Musavat.com

# "Nar" müştəri loyallığı indeksinə görə liderdir

**Müstəqil araşdırma şirkətləri tərəfindən keçirilmiş araşdırmaların/sorğuların nəticələrinə əsasən, "Nar" mobil operatorunun müxtəlif parametrlər üzrə müştəri loyallığı indeksində əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Həyata keçirilmiş NPS (Net Promoter Score) göstəricisi və "Brand Tracking" araşdırmalarına görə, "Nar" mobil internet istifadəçilərinin sayındakı artım tempi üzrə mobil rabitə bazarında yüksək nəticəyə nail olub.**

nar
Gəlin birlikdə böyüyək

**Beynəlxalq şirkət tərəfindən aparılmış araşdırmanın nəticələrinə əsasən, "Nar"-ın müştəri loyallığı indeksində il ərzində 5,3% artım müşahidə edilib. Sorğuya əsasən, mobil şəbəkənin keyfiyyəti, müştərilərin şəbəkəni öz dost və ailə üzvləri arasında istifadə etməsi, eləcə də sərfəli tarif və qiymətlər sözügedən göstəricidəki artımın əsas səbəbləridir. Bundan başqa, "Nar" səsin keyfiyyəti, müştəri xidmətləri, genişləndirilmiş telekommunikasiya xidmətləri, zəng xidməti üzrə müştəri məmnuniyyəti göstəriciləri və əlverişlilik üzrə yüksək nəticə göstərib.**

**Digər müstəqil şirkət tərəfindən həyata keçirilmiş "Brand Tracking" araşdırmasına əsasən, "Nar" abunəçilərinin 66%-i mobil operatorun qiymətlərinin daha sərfəli olduğunu düşünür ki, bu da müştəri qrupları (digər operatorların abunəçiləri ilə müqayisədə) arasında ən yüksək nəticədir. Abunəçilərin 84%-i isə "Nar" şəbəkəsinin gələcəkdə istifadə edilə biləcək yeganə şəbəkə olduğu qənaətindədir. Bu rəqəm də mövcüd operatorların abunəçilərindən ibarət respondent qrupları arasında ən yüksək göstəricidir. Əlavə olaraq, "Nar" brend potensialı indeksi (BPI) il ərzində 4%, loyallıq indeksi isə 7% artıb.**

**Operator mobil internet istifadəçilərinin sayında nəzərəçarpacaq artıma bütün ölkə ərazisi boyunca genişləndirilmiş 3G, 4G və LTE-A şəbəkəsi ilə yanaşı, abunəçilərə sərfəli qiymətə yüksəkkeyfiyyətli mobil internet paketlərini təqdim etməklə müvəffəq olub.**

**Qeyd edək ki, 2017-ci ilin 2-ci rübündə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testləri nəticəsində də "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdu. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdı.**

Yeni Müsavat
N 172 (7061) 14 avqust 2018

# Qəlbimiz səninlə, “Qarabağ”...

## İnanırıq ki, Azərbaycanı həmişə layiqincə təmsil edən “Qarabağ” Belarusdan yaxşı nəticə ilə qayıdacaq

**Bu gün Bakı vaxtilə saat 21:00-da “Qarabağ” Çempionlar Liqasının (ÇL) 3-cü təsnifat mərhələsində Belarusun BATE klubu ilə qarşılaşacaq. Bu klublar arasında bir həftə əvvəl Bakıda keçirilən oyunda rəqib 0:1 hesabı ilə qalib gəlib. “Qarabağ” ÇL “pley-off” mərhələsində Hollandiyanın PSV klubu ilə oynamaq üçün bu gün qapısını qorumaqla 1 topluq fərqi qapatmalıdır. Qeyd edək ki, yalnız əsas vaxtda “Qarabağ” 1:0 qalib gələcəyi halda əlavə vaxt təyin oluna bilər. İstənilən heç- heçə nəticə isə BATE-ni növbəti mərhələyə çıxaracaq. “Qarabağ” mərhələni keçməyəcəyi halda Avroliqanın qrup mərhələsində oynamaq şansını sürdürəcək.**




***

BATE-nin Borisovda Bakıdakından fərqli oyun nümayiş etdirəcəyi o qədər də inandırıcı deyil. Qeyd etdiyimiz kimi, istənilən heç-heçə kluba sərf edir və bu halda qabağa atılaraq riskə ehtiyac qalmır. BATE-li futbolçuların bu gün fərqli oyun nümayiş etdirəcəkləri barədə açıqlamaları inandırıcı deyil. Gözlənilir ki, 13 minlik stadionda klubun əsas məqsədi Bakıdakı nəticəni qorumaq olacaq. Aydındır ki, Belarus klub rəhbərliyi “Qarabağ”ın hücuma daha çox meyllənəcəyi səbəbindən əks-hücumlara önəm verəcək. Bakıdakı oyunda BATE-nin əks-hücumlarda təhlükəli olduğunu gördük. O oyun epizodlarında qapımıza top vurulmamasında bəxtimiz gətirdi. Yoxsa Qurban Qurbanovun komandasının işi bu gün daha da çətin ola bilərdi.

***

Bəs “Qarabağ”dan bugünkü qarşılaşmada nə gözləmək olar? Əlbəttə ki, bütün “Qarabağ”sevənlər klubdan yalnız qələbə gözləyir. Çətin olduğunu bilsək də, “Qarabağ”a inanırıq.

“Qarabağ” rəhbərliyi də bu oyuna ciddi önəm verir. Həftəsonu klub prezidenti Abdulbari Gözəlin “Qarabağ”ın bazasına gedərək həm məşqçilərlə, həm heyətlə görüşməsi də buna sübutdur. Klub prezidentinin oyun öncəsi futbolçulara motivasiyası hər zaman önəmlidir. Sirr deyil ki, ilk oyundakı məğlubiyyət klubdakı əhval-ruhiyyəyə təsirsiz ötüşməyib. Amma belə həlledici məqamlarda rəhbərliyin oyunçulara dəstəyinin önəmi bir ayrı məna daşıyır. “Qarabağ” indi sırf heyətdəki qaçılmaz dəyişikliklər səbəbindən yeni bir dönəm yaşayır. Klub üzərində həm də psixoloji olaraq bir basqı hiss olunmaqdadır, mediada da “Qarabağ”a müəyyən tənqidlər var. Məhz belə bir həssas dönəmdən keçən kluba prezident səviyyəsində dəstək vacibdir.

Qeyd edək ki, A. Gözəl “Qarabağ”ın Avropa və dünya miqyasında tanıtdığını qeyd edib. Çıxışında BATE ilə sonuncu qarşılaşmaya toxunan klub prezidenti məğlubiyyətə baxmayaraq komandaya inandığını, xüsusilə 2-ci hissədə “Qarabağ”ın oyunundan məmnun qaldığını bildirib. O deyib ki, klubun BATE ilə təkrar qarşılaşmada uğur qazanacağına inanır.

Komandanın uzun illər Qurban Qurbanovun rəhbərliyi altında sabit çıxış etdiyini bildirən klub rəhbəri “Qarabağ”ın artıq Avropada və dünyada tanınan bir klub olduğunu bildirib.

***

Bəs “Qarabağ” milyonlarla azarkeşini sevindirmək üçün Borisovda nə etməlidir? Kimsə ağıl və ya yol öyrətmək bizim işimiz deyil. Sadəcə, istəklərimizi qeyd edə bilərik ki, bu da hər bir azarkeşin doğal haqqıdır.

Öncə “Qarabağ” Bakıdakı sönük oyun taktikasını dəyişməlidir! “Qarabağ” topla yaxşı oynayan klubdur və indi yenə də ən yaxşı bacardığımız iş budur. Amma Rusiyada keçirilən son dünya çempionatı da göstərdi ki, müasir futbolda topa nəzarət uğur qazanmaq üçün kifayət deyil, əksinə, bəzi hallarda komandalar üçün qol vurmaq problemi yaradır. “Qarabağ” topa mərkəzdə nəzarət etməklə yanaşı, onu rəqib qapısına vurmağa çalışmalıdır. BATE müdafiədə etibarlı klubdur, hündürboy oyunçuları var ki, standart ötürmələrin cərimə meydançasına düşməsinə, ya da hücumçuların əlverişli mövqe qazanmasına imkan vermirlər. Bu halda isə rəqib müdafiəsini yarmaq üçün yollar tapılmalıdır. Bunun üçün ya cərimə meydançası yaxınlığından güclü zərbələr vurmaq, ya da müdafiəni yarmaq lazım gəlir.

“Qarabağ”da uzaq məsafədən zərbə vura bilənlər var. Sadəcə, bunu oyun ərzində daha tez-tez etmək lazımdır. Qurban Qurbanovun ilk oyundakı heyətdə müəyyən dəyişiklik edəcəyini proqnozlaşdırmaq olar. Məsələn, yarımmüdafiəçi Filip Ozobiçi start heyətdə oynamaq pis olmazdı. Onun həm uzaq məsafədən zərbə vurmaq, həm rəqibin cərimə meydançasında çaşqınlıq yaratmaq bacarığı var.





Standart vəziyyətlərə gəlincə, klub Bakıdakı son iki oyunda xeyli künc zərbəsi qazansa da, heç birini qola çevirə bilmədi. BATE ilə qarşılaşmada demək olar ki, bütün künc zərbələrini vuran Rəşad Sadıqovun da iştirakı ilə əvvəllər standart vəziyyətdən daha yaradıcı istifadə edə bilirdik. İndi isə künc zərbələri zamanı rəqib qapısı özünü çox təhlükəsiz hiss edir. Nəhayət, hücum haqda.

ÇL təsnifat mərhələsində keçirilən Yunanıstanın PAOK və Moskva “Spartak”ın oyununa yəqin ki, çoxları baxıb. 2016-cı ilin noyabrında “Qarabağ”ın Avroliqanın qrup mərhələsində Salonikdə məğlub etdiyi PAOK iki top buraxsa da, məhz hücumlar sayəsində elə ilk hissədə 3 top vuraraq qələbə qazandı.

“Qarabağ”ın hücum xəttində rəqibə problem yarada biləcək oyunçular var, amma klub hücuma istənilən səviyyədə meyl etmir. Hücumun olmadığı futbol isə kimin oynamasından asılı olmayaraq cəlbediciliyini itirir, oyunun keyfiyyəti aşağı düşür və təbii ki, nəticəyə də ciddi təsir edir. “Qarabağ” ötən sezon müdafiədə etibarlı oyunu ilə seçilirdi, amma uğuru məhz hücumlar gətirdi. Vəziyyət indi həm də belədir ki, klub əsasən hücum taktikasını seçməlidir. İnanırıq ki, Azərbaycanımızı həmişə layiqincə təmsil edən “Qarabağ” Belarusdan yaxşı nəticə ilə qayıdacaq.

Matçın baş hakimi Latviya Futbol Federasiyasından Andris Treymanis olacaq. Ona həmyerliləri Haralds Qudermanis və Alekseys Spasyonnikovs köməklik edəcək.

**Uğurlar “Qarabağ”!**

**❑ Nazim SABİROĞLU, “Yeni Müsavat”**







YENİ MÜSAVAT

Son səhifə

N 172 (7061) 14 avqust 2018

# Ərini satışa qoydu

**Teresa Turner adlı qadın ərini satışa çıxarıb. Məsələ ondadır ki, qadında yüksək səslərə dözə bilməmə, çox narahat olma kimi özəllikləri olan "Mizofoni" adlı xəstəlik var. Teresa insanların yüksək səslə yemək yemələrinə dözə bilmir. Əri isə onu daha da hirsləndirmək üçün yemək zamanı səs-küy çıxaran birinin videosunu dəfələrlə izləyib. Buna cavab olaraq həyat yoldaşı da onun fotosunu sosial şəbəkədə paylaşaraq, ərini satışa çıxarıb.**

"Belə bir video tapdım. Teresa dayanmağımı söylədi. Videonu dəfələrlə izləməyə başladım. Öncə yoldaşım yuxarı mərtəbəyə çıxdı, sonra da satış həyata keçirilən bir facebook səhifəsinə elan yazaraq, məni satışa çıxardı" - kişi deyib.

Teresa ərinin bir şəklini paylaşaraq, onun özəlliklərini vurğuladığı cümləri belə sıralayıb: "Əsəblərimi korlamasına bundan artıq icazə verməyəcəm. 33 yaşındakı bu ərimi satıram. Amma pul istəmirəm, tamamilə havayıdır. Ev və tualet tərbiyəsini tamamlayıb, birinci sinif bir ərdir".

Amma zarafatla etdiyi bu paylaşıma qadınlar eyni reaksiyanı verməyiblər. 1 saat ərzində sözügedən paylaşımın altında 300-ə yaxın subay qadın Robu almaq istədiyini yazıb. Bu nəticəni görən Tersa isə aşağıdakıları yazıb: "Bizim axmaq zarafat anlayışımız insanları güldürdüyü üçün çox xoşbəxtəm".

# Dünyanın ən uzun dişi çıxarıldı

**"Ginnesin Rekordlar kitabı"na daha bir əlavə edilib. Dünyanın ən uzun dişi artıq çıxarılıb. Bu barədə "The Mirror" xəbər verib. Hindli yeniyetmədən çıxarılan dişin uzunluğu 3.67 santimetr olub. Əməliyyatı aparan stomatoloqun sözlərinə görə, 18 yaşlı gənc onun yanına kosmetik problemlə gəlibmiş. Belə ki, onun dişi böyüdüyü üçün ağız quruluşuna mənfi təsir edirmiş. Bu problemi aradan qaldırmaq üçün keçirilən əməliyyat isə 30 dəqiqə çəkib. Hindlinin dişi bu günə qədərki rekord göstəricidən 5 millimetr uzun olub. İnsan dişinin orta uzunluğu 20 millimetr təşkil edir.**



Xəbərdə qeyd olunur ki, əməliyyat fevral ayında keçirilsə də, rekord bu günlərdə qeydə alınıb.

Xatırladaq ki, iyunda da ABŞ-da dünyanın ən uzun pizzası hazırlanıb. Rekordun qeydə alınmasında onlarla aşpaz iştirak edib. Onlar 11 iyunda, axsan saat 7-də hazırlığa başlayıblar, növbəti gün bitiriblər. Kulinariya uğuru "Ginnesin rekordlar kitabı"nda qeydə alınıb.

# Saxta şəklə 165 min funt sterlinq ödədi

**Britaniyalı Patrisia Rees 165 min funt sterlinqə məşhur rəssamın əsəri adı ilə satın aldığı əsərin onun şagirdi tərəfindən çəkildiyi üzə çıxıb. Sözügedən natürmortda şüşə qrafin və iki armud təsvir edilib.**

Satıcı onu inandırmağa çalışıb ki, sözügedən şəkil məşhur rəssam Vilyam Nikolsona məxsusdur. Buna baxmayaraq, əsər rəssama məxsus əsərlər siyahısında yer almadığı üçün qadın şübhələnərək daha sonra araşdırma aparıb. Ekspertlərə müraciət edən Patrisiyana bildirilib ki, Nikolsonun belə bir əsəri olmayıb. Bu tablonu saxta rəsm əsərləri yayan Con Mayyat hazırlayıb və bazarda yayıb. O, daha öncə bu əməlinə görə türmədə yatıb. Ekspertiza müəyyən edib ki, şəklin hazırlanması zamanı rəssama aid rənglərdən istifadə edilib.

Amma əl işinin özəllikləri rəssama yox, onun şagirdinə aid olub. Şagirdi 1930-cu illərdə onun yanında olub. Yeri gəlmişkən, rəssamın şagirdlərindən biri də Britaniyanın keçmiş baş naziri Vinston Çörçil olub.





# Atalardan internet məsləhəti

**Amerikada kişilər arasında yeni bir dəb başlayıb. Bir qrup kişi tərəfindən start verilən "Yaxşı adamlar layihəsi"ndə güclü cinsin nümayəndələri evlilik, iş, özəl münasibətlərlə bağlı yaşadıqları vacib hadisələr barədə danışırlar. İnternet qəzeti olan "Huffington Post"da yer alan və "Oğlum üçün 10 tövsiyə" başlıqlı yazı kişilərin gerçək təcrübələrindən yararlanaraq uşaqları ilə paylaşdıqları modern ata tövsiyəsinə çevrilib.**

Ataların oğullarına verdikləri tövsiyələr arasında qadınlar, iş həyatı, dostlarla bağlı məqamlar da yer alır. Amerikan atalar məsləhət görür ki, sevdiyi qadınları anlamaq üçün onların gözünün içinə baxıb, işıltını görmək kifayətdir. Bundan başqa, çox vacib mövzularda yalan söyləməmək, ancaq insanı xoşbəxt edəcək işdə çalışmaq, tez-tez uzaq ölkələrə səyahət etmək, evlənmək üçün tələsməmək kimi məqamlar da tövsiyələr arasında yer alır.

# Qoroskop




**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə hansısa günaha qol qoymayın. Hər addımda Tanrını başınız üstündə hiss edin. İnsanlara yalnız yaxşılıq edin ki, düşdüyünüz böhrandan çıxasınız.

**BUĞA** - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Nəzərdə tutduğunuz planları həyata keçirməkdə çətinliyiniz olmayacaq. Günün ikinci yarısında pul gözlənilir.

**ƏKİZLƏR** - Hansısa yeni fəaliyyətlə məşğul olmağa tələsməyin. Bunun əvəzinə hazırkı işlərinizə aludə olmağınız daha yaxşıdır. Qarşıdakı on günün planlarını indidən götür-qoy edin.

**XƏRÇƏNG** - Fəaliyyətinizdə mühüm irəliləyişlər gözlənilir. Bu səbəbdən də bütün mümkün variantlardan yararlanın. Yeni münasibət qurduğunuz insanlara şübhə ilə yanaşmayın. Xoflanmağa lüzum yoxdur.

**ŞİR** - Daha çox ehtiyatlılıq nümayiş etdirin. Xüsusən də günün birinci yarısında riskli sövdələşmələrdən, yeni təkliflərdən imtina edin. Əks cinslərinizlə tədbirli davranın.

**QIZ** - Ulduzlar fəaliyyət yönümündə passivlik vəd edir. Bu səbəbdən də diqqəti münasibətlərə, soyuqlaşmış əlaqələrin dirçəlməsinə yönəldin. Nahardan sonra mədəni istirahətə vaxt ayırın.

**TƏRƏZİ** - Emosionallıqdan çıxıb real düşünün. Yadda saxlayın ki, indi siz nə nağıllar aləmində yaşayırsınız, nə də dünyanın sahibisiniz. Necə deyərlər, çalışıb "Ayağınızı yorğana görə uzadın".

**ƏQRƏB** - Hər bir məsələdə obyektiv olun. Şəxsi ambisiyalarınızı qabartmayın. Əks təqdirdə, gün boyu planlaşdırdığınız işlər pozula bilər. Uzaq səfərlərinizi təxirə salın.

**OXATAN** - Etibarlı dostların köməyindən yararlana bilsəniz, günün ümumi mənzərəsindən razı qalacaqsınız. İşlə bağlı müəyyən passivlik gözlənilsə də, bu, müvəqqəti xarakter daşıyacaq.

**OĞLAQ** - Maliyyə problemlərinizi aradan qaldırmaq üçün ulduzlar sizə qarşı səxavət göstərəcək. Odur ki, ümidsizliyə qapılmamalısınız. Saat 13-17 aralığında yeni təkliflər də gözlənilir.

**SUTÖKƏN** - Boş dayanmağa lüzum yoxdur. İşıq ucu gələn bütün yollara baş vurun. Saat 12-14 arası imicinizə xələl gətirə bilən hallardan qorunun. Gün ərzində qazanmaq şansınız da var.

**BALIQLAR** - Qarşınızda elə bir təqvim durub ki, rastlaşdığınız hər bir detala diqqətlə yanaşmalısınız. Ələlxüsus da qarşılıqlı münasibətlərə, ailə-sevgi davranışlarına ciddi fikir verməlisiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Evlənmə təklifi etdiyi üzük çaya düşdü



**Amerikanın Missuri ştatı, Kanzas-Siti şəhər sakini olan kişi sevdiyi qadına romantik evlənmə təklifi etməyə çalışıb. Amma o, təsadüfən üzüyü çaya salıb. Bu barədə lenta.ru saytı xəbər verib.**

Belə ki, kişi nişanlısını parkdakı mənzərəli körpünün yanına gətirib. Onun qarşısında dizi üstə çöküb, ardınca isə içində üzük olan qutunu açıb. Amma bu məqamda o, həmin üzüyü qutunun içindən yerə, oradan da çaya salıb. Cütlüyün dostları dərhal çaya düşsələr də, üzüyü tapa bilməyiblər. İtmiş evlilik üzüyünün qiyməti 4 min dollar idi. Fotoqraf Steysi Debni baş verənləri videoya çəkib. Facebookda yayılan videonu 100 min dəfə izləyiblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100